Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

73-cü cild

7 iyun 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR XVI SESSİYASI İCLASININ

# PROTOKOLU № 171

*Milli Məclisin iclas salonu.*
*7 iyun 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Anar Kərimov**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Elnur Abbasov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri.

**Himalay Məmişov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin şöbə müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda

dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası

qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Samir Şərifov, Vüqar Gülməmmədov, Vüqar Bayramov, Elşən Musayev, Nurlan Həsənov, Elnur Allahverdiyev, Mirbəşir Elşad, Siyavuş Novruzov

**Təklif:** Çıxışlar dayandırılsın

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 82 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**2. “Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**3. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Etibar Əliyev, Aydın Hüseynov, Samir Şərifov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**5. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Razi Nurullayev, Fazil Mustafa, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Azay Quliyev, Aydın Hüseynov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Bəhruz Məhərrəmov, Arzu Nağıyev, Sabir Rüstəmxanlı

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Kamal Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**9. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Rəşad Mahmudov, Müşfiq Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**13. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 iyun 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

*(Alqışlar.)*

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, iyunun 5-də və 6-da Milli Məclis böyük beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Milli Məclisdə Türk Dövlətləri Parlament As-

sambleyasının 13-cü Şura və Plenar iclasları keçirilmişdir. Bundan başqa, Assambleyanın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun iclasları, parlament Baş katiblərinin birinci görüşü də baş tutmuşdur. Bütün bu tədbirlər göstərdi ki, digər inteqrasiya qurumları kimi, Türk Dövlətləri Parlament Assambleyası da ildən-ilə inkişaf edərək eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən qardaş xalqların və dövlətlərin ümumi məqsədlər ətrafında sıx birləşməsində mühüm rol oynayır.

Dünən assambleyanın plenar iclasında etdiyim çıxışda mən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin “Bizim ailəmiz türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur” kəlamını xatırlatdım. Bildirdim ki, türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir.

İclasda “Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu” mövzusunda müzakirələr aparıldı. Müasir dövrün aktual problemi olan iqlim dəyişmələrinə qarşı mübarizədə parlamentlərimizin ata biləcəyi addımlar nəzərdən keçirildi, noyabr ayında Bakıda keçiriləcək COP29 konfransı ilə bağlı fikir mübadiləsi aparıldı. İclasın yekununda Bakı Bəyannaməsi qəbul edildi.

Onu da deyim ki, Türk Dövlətləri Parlament Assambleyasının 13-cü Plenar iclasında assambleyaya sədrlik Türkiyə Respublikasından Azərbaycan Respublikasına təhvil verildi. Beləliklə, hazırda Milli Məclis üç beynəlxalq parlament qurumuna sədrlik edir. Xatırladım ki, bu qurumlar Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Asiya Parlament Assambleyası və Türk Dövlətlərinin Parlament Assambleyasıdır.

Hörmətli həmkarlar, hesab edirəm ki, Türk Dövlətləri

Parlament Assambleyasının Bakıda keçirilən bütün tədbirləri həm məzmun, həm də forma baxımından yüksək səviyyəsi ilə seçilirdi. Bununla əlaqədar mən tədbirlərin təşkilində əməyi keçən millət vəkillərinə, Milli Məclis Aparatının və İşlər İdarəsinin bütün əməkdaşlarına minnətdarlığımı bildirirəm.

Mənim məlumatım bu qədər. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə xahiş edirəm, gündəliyə də münasibət bildirəsiniz. Gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Bu gün gündəlikdə 13 məsələmiz var.

Hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişaf strategiyası 2024-cü ilin ötən dövründə də iqtisadiyyatın yüksəlişini təmin etmişdir. Ölkənin əsas makroiqtisadi göstəricilərində artım müşahidə olunur.

Mən yalnız bir neçə rəqəmi qeyd edəcəyəm. Bu ilin 4 ayının yekunlarına görə, ölkədə 38,2 milyard manatlıq ümumi daxili məhsul istehsal edilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə artım 4,3 faiz təşkil etmişdir. Qeyri-neft-qaz sektorunda artım isə daha yüksək

– 7,7 faiz olmuşdur. 2024-cü il dövlət büdcəsi gəlirlərinin artımı 4 ayın yekunlarına görə, 9 faizdən çox olmuşdur.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı dövlətin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə bu ilin dövlət büdcəsi haqqında qanunda və büdcə zərfinə daxil olan digər iki qanunda dəyişiklik edilməsi zərurətini irəli sürmüşdür. Bununla əlaqədar olaraq möhtərəm cənab Prezident müvafiq qanun layihələrini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etmişdir və gündəliyin ilk 3 məsələsi məhz bu qanun layihələridir.

Qeyd edim ki, məsələlərin müzakirəsi ilə bağlı hörmətli hökumət üzvləri və nümayəndələri iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı bir daha salamlayıram.

Onu da qeyd edim ki, hər 3 qanun layihəsi birinci oxunuşda müzakirə ediləcək. Mən bəri başdan xahiş edirəm, hörmətli həmkarlar, çıxışlar zamanı birinci oxunuşun tələblərinə əməl edəsiniz.

Hörmətli həmkarlar, bu qanun layihələrinin hamısı büdcə zərfi ilə bağlı olduğuna görə təklif edirəm, məsələlərin təqdimatları ayrılıqda edilsin, ancaq müzakirəsi birlikdə aparılsın. Biz həmişə bunu edirik. Təbii ki, səsvermə də ayrılıqda keçiriləcək.

Beləliklə, hörmətli həmkarlar, biz gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri və media nümayəndələri! Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisə təqdim edilmişdir. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığın təmin olunması, onun tərtibinin və icrasının, həmçinin gəlir və xərclərinin məbləğinin dəyişdirilməsi ilə bağlı dövlət büdcəsinə yenidən baxılması mühüm şərt kimi göstərilmiş və burada dövlət büdcəsinə yenidən baxılma halları müəyyən edilmişdir.

Qanun layihəsinə dair bizə təqdim edilmiş izahatda 2024-cü ilin 4 ayı ərzində dünya neft və qaz bazarlarında mövcud olan münbit qiymət konyunkturu, cari il üzrə müşahidə olunan tendensiyalar, vergi və gömrük daxilolmalarının, habelə icmal və dövlət büdcələrində xərclərin artması nəzərə alınmaqla 2024-cü ilin aprel ayında cari il üzrə makroiqtisadi proqnozlar yenilənməşdir.

Eyni zamanda, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra infrastruktur təyinatlı layihələrin maliyyə təminatı ilə bağlı əsaslı xərclər, beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyət, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, bəzi xidmətlər üzrə verilən subsidiyalarla bağlı xərclər və zəruri hesab olunan digər istiqamətlər üzrə dövlət vəzifələrinin əlavə gəlirləri,

mövcud ehtiyatlar və kəsirin genişləndirilməsi hesabına maliyyələşdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasına ehtiyac yaranmışdır.

"Büdcə sistemi haqqında" Qanunun 23.7-ci maddəsinə əsasən dövlət büdcəsinin gəlir və xərcləri üzrə məbləğinin büdcə gəlirləri təsnifatının, büdcə xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlarının paraqrafları səviyyəsində dəyişdirilməsi nəzərdə tutulduğundan qanunvericilik təşəbbüsü qaydasında və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndi nəzərə alınmaqla qanunda göstərilmiş sənədlər Milli Məclisə təqdim edilmişdir. Qanun layihələri haqqında Hesablama Palatasının rəyi də Milli Məclis üzvlərinə təqdim edilmişdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında hökumət üzvlərinin, Hesablama Palatasının və müvafiq dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə qanun layihələri geniş müzakirə edilmişdir.

Hörmətli həmkarlar, beynəlxalq təşkilatlar tərəfindən yenilənmiş proqnozlara əsasən 2024-cü ildə əvvəlki ilə nisbətən dünya iqtisadiyyatında iqtisadi artımın sürətlənəcəyi gözlənilir. Belə ki, ilkin proqnozlarda qlobal iqtisadi artımın təxminən 2,1–2,9 faiz ətrafında olacağı gözlənilsə də, 2024-cü ildə dərc edilmiş yeni hesabatlara əsasən bu göstəricinin təxminən 2,4–3,2 faiz ətrafında olacağı proqnozlaşdırılır. İqtisadi artımın sürətlənməsi ilə bağlı gözləntilər neft qiymətlərini artırmış, beynəlxalq təşkilatlar neftin qiymətinə dair proqnozlarında düzəlişlər etmişlər. Belə ki, iqtisadi aktivliyin yüksəlməsi, geosiyasi gərginliyin artması və "OPEC+" tərəfindən hasilatın daha da azaldılması nəticəsində aprel ayında "Brent" markalı neftin orta aylıq qiyməti 90 ABŞ dollarını ötmüşdür və bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 ABŞ dolları

çoxdur. Proqnozlara əsasən dünya üzrə illik inflyasiyanın 2023-cü ildə 6,8 faizdən 2024-cü ildə 5,9 faizə enəcəyi gözlənilsə də, beynəlxalq təşkilatlar tərəfindən baza inflyasiyasının yuxarıya doğru irəliləməsi ilə bağlı narahatlıqlar dilə gətirilməkdədir.

Qeyd edək ki, Beynəlxalq Valyuta Fondu cari ilin inflyasiya üzrə proqnozunu yeniləyərək, cüzi də olsa, 0,1 faiz artırmışdır.

2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsi qəbul olunarkən dövlət büdcəsi gəlirlərinin 34 milyard 173 milyon, xərclərinin isə 36 milyard 763 milyon, dövlət büdcəsi kəsirinin isə 2 milyard 590 milyon manat olacağı planlaşdırılmışdır.

Eyni zamanda, 2024-cü ildə ümumi daxili məhsulun real artım tempinin 2,4 faiz, qeyri-neft sektorunun real artım tempinin 4,6 faiz, inflyasiyanın orta illik səviyyəsinin 5,3 faiz olacağı proqnozlaşdırılmış, dövlət büdcəsində hesablamalar neftin 1 barelinin orta illik qiymətinin 60 dollar səviyyəsinə uyğun həyata keçirilmişdir.

Bu ilin yanvar–aprel aylarında Azərbaycan iqtisadiyyatında yaradılmış əlavə dəyər 38,2 milyard manat olmuş, iqtisadi artım tempi proqnozlaşdırılan illik 2,4 faizə qarşı 3,4 faiz təşkil etmişdir. Artım tamamilə qeyri-neft-qaz sektoru hesabına təmin edilmiş, bu sektorun artımı proqnozlaşdırılan illik 4,6 faizlik artıma qarşı 7,7 faiz, neft-qaz sektorunda isə proqnozlaşdırılan 1,7 faizlik illik azalmaya qarşı 0,1 faizlik azalma qeydə alınmışdır. İxrac idxalı 2,5 milyard dollar üstələmişdir. "Azeri Light" markalı xam neftin 1 barelinin orta ixrac qiyməti 87,3 ABŞ dollarına bərabər olmuşdur ki, bu da 2024-cü ilin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən 27,3 ABŞ dolları çoxdur.

Cari ilin 4 ayı ərzində dövlət büdcəsi gəlirlərinin proqnoz və icra göstəriciləri arasında fərqlər müşahidə olunmuş, bir çox gəlir mənbələri üzrə proqnozlar artıqlaması ilə yerinə yetirilmişdir. Belə ki, bu ilin 4 ayı ərzində dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 1 milyard 94,4 milyon manat və ya 9,2 faiz çox təşkil etmişdir. Vergi orqanları xətti ilə təmin edilən gəlirlər proqnozdan 954,4 milyon manat və ya 16,7 faiz, gömrük orqanları xətti ilə təmin edilən gəlirlər isə proqnozdan 131 milyon manat və ya 7,1 faiz çox olmuşdur. Bütün bu artımlar həmçinin dövlət büdcəsi gəlirlərinin proqnozuna yenidən baxılmasına zərurət yaratmışdır.

Dünyada gedən qlobal iqtisadi və geosiyasi proseslər, enerji daşıyıcılarının qiyməti, 2023-cü ilin faktiki nəticələri və cari il üzrə müşahidə olunan tendensiyalar nəzərə alınmaqla, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən cari il üzrə makroiqtisadi proqnozlar yenilənmişdir.

2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma zamanı təqdim edilmiş məlumatlarda ümumi daxili məhsulun ilkin təqdim edilmiş 118,3 milyard manatdan 121,3 milyard manatadək artırılması, iqtisadi artım tempinin isə ilkin təqdim edilmiş 2,4 faizdən 3,8 faizə yüksəldilməsi əks olunmuşdur. Ümumi daxili məhsulda nominal məbləğdə nəzərdə tutulan artımın həm neft-qaz, həm də qeyri-neft-qaz sektoru hesabına təmin olunması proqnozlaşdırılır. Belə ki, dürüstləşdirilmiş proqnozda ümumi daxili məhsulda gözlənilən 3 milyard manat artımın 0,6 milyard manatının qeyri-neft-qaz, 2,4 milyard manatının isə neft-qaz sektorundan formalaşacağı gözlənilir. Qeyri-neft-qaz sektorunda real artım proqnozu 2024-cü il üçün 4,6 faizdən 5,5 faizə qədər artırılmışdır. Neft-qaz sektorunda

real artım proqnozu isə mənfi 1,7 faizdən müsbət 0,8 faizə dəyişdirilmişdir.

Yenidən baxılan büdcə zərfində hesablamalar neftin 1 barelinin orta illik qiymətinin təsdiq edilmiş layihədə nəzərdə tutulan qiymətdən, yəni 60 dollardan 15 dollar artırılaraq 75 dollar səviyyəsinə uyğun həyata keçirilmişdir.

2023-cü ilin yanvar–aprel aylarında inflyasiya tempi azalmaqda davam etmiş, orta illik inflyasiya 0,7 faizə bərabər olmuş, istehlak səbətinin hər 3 alt qrupu üzrə təkrəqəmli qiymət artımı izlənilmişdir.

Təqdim edilmiş məlumatlara əsasən ilkin proqnozlar zamanı 2024-cü ildə orta illik inflyasiyanın 5,3 faiz olacağı nəzərdə tutulsa da, yenidən baxılma zamanı bu göstəriciyə düzəlişlər edilmiş və orta illik inflyasiyanın cari ildə 2,7 faiz olacağı proqnozlaşdırılmışdır.

Hörmətli həmkarlar, bu ilin keçən dövrü ərzində işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra infrastruktur təyinatlı layihələrin maliyyə təminatı ilə bağlı əsaslı xərclər, beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyət, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, bəzi xidmətlər üzrə verilən subsidiyalarla bağlı xərclər və zəruri hesab olunan bəzi xidmətlər üzrə dövlət vəzifələrinin icrası üçün dövlət büdcəsi qarşısında əlavə 3 milyard 796,1 milyon manat məbləğində maliyyə tələbatı yaranmışdır.

Yuxarıda qeyd olunan maliyyə tələbatının gözlənilən artımı dövlət büdcəsinin yenilənmiş proqnozlarına əsasən gəlirlərinin, dövlət büdcəsi kəsirinin böyüdülməsi, təsdiq olunmuş dövlət büdcəsinin bəzi xərclərinin optimallaş-

dırılması və yerdəyişməsi nəticəsində formalaşan sərbəst vəsait hesabına qarşılanması nəzərdə tutulur.

Bütün bu deyilənləri nəzərə alaraq yenidən baxılan dövlət büdcəsinin gəlirlərinin 2 milyard 180 milyon manat artırılaraq 36 milyard 353 milyon manata, xərclərinin 2 milyard 944,3 milyon manat artırılaraq 39 milyard 707,3 milyon manata, kəsirin 764,3 milyon manat artırılaraq 3 milyard 354,3 milyon manata çatdırılması təklif olunur.

Eyni zamanda, qeyd etmək istərdim ki, komitə iclasında aparılan müzakirələr, tərəfimizdən aparılan təhlillər, bu ilin 4 ayının dövlət büdcəsinin icrasının göstəriciləri dövlət büdcəsi gəlirlərinin ilin sonuna proqnozlaşdırılan göstəricisindən daha da çox olacağını deməyə bizə əsas verir. Komitə iclasında deputatlar proqnozlar ilə gəlirlərin hesablanmasında daha dəqiq metodların tətbiq edilməsinin vacibliyini qeyd etmişlər.

Eyni zamanda, qanun layihəsinə dair izahatda 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılması nəticəsində dövlət büdcəsinin gəlir və xərclərinin ilin sonuna gözlənilən icra göstəriciləri nəzərə alınaraq icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti, eləcə də dövlət borcunun ümumi daxili məhsula nisbəti müəyyən edilmiş hədlər daxilində təmin olunacağı göstərilmişdir.

Hörmətli həmkarlar, bir neçə gün bundan öncə möhtərəm Prezident cənab İlham Əliyev Xocalı şəhərinə səfər etdi. Bu səfər çərçivəsində şəhərin ilk sakinlərinə yenidən tikilmiş və bərpa edilmiş evlərin açarlarının təqdim edilməsi mühüm tarixi hadisə idi. Dövlət başçısının iradəsi, Azərbaycan dövlətinin gücü və dövlət büdcəsindən xərclənən vəsaitlər hesabına əldə olunan bu tarixi nəticələr vətəndaşlarımızı qürurlu gələcəyə ümidləndirən ən mü-

hüm amillərdəndir. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə yalnız infrastruktur layihələri kimi baxmaq doğru deyildir. Bu ərazilərdə həm də Azərbaycan dövlətinin və xalqının sarsılmaz və uğurlu gələcəyi inşa edilir. Ona görə bu istiqamətdə xərclənəcək hər bir manat gələcəyimizə qoyulan ən doğru investisiyadır. Biz komitə olaraq bu istiqamətdə xərclərin artırılmasını təqdirəlayiq hal hesab edirik.

Regionda baş verən çağırışlar fonunda və Ermənistan ilə sülh müqaviləsinin bağlanması üzərində danışıqların getdiyi bir zamanda müdafiə və təhlükəsizliyimizin gücləndirilməsi çox vacib əhəmiyyət kəsb edir. Bu yöndə atılan addımlar həm də beynəlxalq aləmdə və regionda diplomatiyamızın gücünü və kəsərini artırır. Bu istiqamətdə xərclərin artırılması ilə müdafiə və təhlükəsizlik imkanlarımızın möhkəmləndirilməsi dövlətimizin mövqeyini bütün istiqamətlərdə gücləndirəcəkdir.

Bu ilin noyabr ayında ölkəmizdə keçiriləcək dünya miqyasında mühüm tədbir olan COP29 tədbiri dünyanın qəlbinin Bakıda döyünməsinə səbəb olacaq. Məhz dünyanın gələcəyi və insanların xilası üçün Azərbaycanın və onun dövlət başçısının göstərdiyi səylər, əminəm ki, heç zaman unudulmayacaqdır. Bu tədbirlə bağlı dövlət büdcəsinin əlavə xərclərinin müəyyən olunmasını komitə üzvləri olaraq təqdirəlayiq hal hesab edirik. Bütün bu istiqamətlər üzrə dövlət büdcəsinin gəlir və xərclərinin artan iqtisadi potensiala uyğun dəyişdirilməsinə rəyimiz müsbətdir.

Yekun olaraq, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini dəstəkləyir. Deputat həmkarlarımı

da bu layihəyə səs verməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Tahir müəllim, sağ olun. Hörmətli həmkarlar, mən çıxış etmək üçün Azərbaycan Respublikasının maliyyə naziri hörmətli Samir Şərifova söz verirəm. Samir müəllim, buyurun.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Prezident İlham Əliyevin rəhbərliyi altında öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam təmin edən Azərbaycan Respublikası tarixinin ən qüdrətli, müstəqilliyinin ən güclü, dövlətçiliyinin ən möhtəşəm quruculuq mərhələsinə daxil olmuşdur. Cari ilin fevral ayında keçirilən prezident seçkilərində növbəti dəfə xalqın etimad mandatını qazanan möhtərəm Prezidentimiz cənab İlham Əliyev andiçmə mərasimində böyük ümidləri və hədəfləri özündə birləşdirən bu məsuliyyətli və strateji mərhələdə hökumət qarşısında yeni çağırışları ehtiva edən vəzifələr qoymuşdur. Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərinə söykənən 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının məqsədlərinin reallaşması, o cümlədən ən başlıcası, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması və onlara layiqli həyat şəraitinin yaradılması, işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası həmin vəzifələr sırasındadır.

Çox qürurvericidir ki, Böyük Qayıdış prosesi Füzuli, Laçın şəhərləri, Talış, Ağalı, Sus, Zabux kəndlərinin ardınca cari ilin ötən dövründə Şuşa və Xocalı şəhərlərini də əhatə etmişdir. Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin, təhlükəsizliyinin daha da gücləndirilməsi,

silahlı qüvvələrin hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, dövlət sərhədlərimizin bərpa edilməsi və möhkəmləndirilməsi kimi mühüm vəzifələr hələ də çağırışlar olaraq qalmaqdadır.

Hörmətli millət vəkilləri, sadalanan bu ümdə məsələlərlə yanaşı, ölkəmizin digər regionlarında da inkişafdan qaynaqlanan zəruri infrastrukturların yaradılması, o cümlədən avtomobil yollarının tikintisi, elektrik şəbəkəsinin gücləndirilməsi, suvarma və irriqasiya sistemlərinin yaxşılaşdırılması ilə bağlı xərclərin və digər məqsədli xərclərin qarşılanması üçün əlavə maliyyə resurslarına ehtiyaclar müəyyən edilmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev ölkəmizin iqtisadi göstəricilərinin müsbət dinamikasını nəzərə almaqla, cari ildə dövlət büdcəsinin icrası zamanı proqnoza nisbətdə daha çox əldə edilən gəlirlər hesabına yaranan əlavə maliyyə imkanlarının ölkənin makroiqtisadi sabitliyinin və uzunmüddətli fiskal dayanıqlılığının təmin olunması şərti ilə qarşımızda duran milli hədəflərin reallaşdırılmasına və bununla bağlı zəruri vəzifələrin icrasına yönəldilməsi barədə hökumətə tapşırıqlar vermişdir.

Cari ilin ötən 4 ayının makroiqtisadi və fiskal mənzərəsinə nəzər salaq. Qeyd olunduğu kimi, 2024-cü ilin yanvar–aprel aylarında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunmuşdur. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz, qeyri-neft sektoru üzrə isə 7,7 faiz artmışdır. Bununla yanaşı, dünya neft və qaz bazarlarında mövcud olan münbit qiymət konyunkturu, 2024-cü ilin ilk 4 ayında "Azeri Light" markalı xam neftin 1 barelinin orta ixrac qiyməti 87,3 ABŞ

dollarına bərabər olmuşdur ki, bu da 2024-cü ilin dövlət büdcəsində büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən 27,3 ABŞ dolları çoxdur. 2024-cü ilin yanvar–aprel aylarında dövlət büdcəsinin gəlirləri 12 milyard 144 milyon manat proqnoza qarşı 13 milyard 259 milyon manat olmuşdur. Bu da nəzərdə tutulduğundan 1 milyard 115 milyon manat, yəni 9,2 faiz çoxdur. Proqnozla müqayisədə artımın 67,9 faizini və yaxud 750 milyon manatını qeyri-neft-qaz sektoru, 32,1 faizini və yaxud 358 milyon manatını isə neft-qaz sektoru üzrə əlavə gəlirlər təşkil etmişdir. Beləliklə, cari ilin yanvar–aprel ayları üzrə dövlət büdcəsinin gəlirlərinin 6 milyard 867 milyon manatı qeyri-neft sektorunun payına düşmüşdür ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 434 milyon manat və yaxud 6,8 faiz çoxdur.

Ötən dövr ərzində dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi 51,8 faiz təşkil etməklə proqnozu 1,5 faiz üstələmişdir. Qeyd olunmalıdır ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirləri üzrə proqnoza nisbətən 594 milyon manat və yaxud 15,1 faiz, Dövlət Gömrük Komitəsinin xətti ilə isə 131,9 milyon manat və yaxud 7,1 faiz çox daxilolma olmuşdur.

Dünya neft və qaz bazarlarında qiymət konyunkturu, cari ilin əvvəlindən müşahidə olunan vergi və gömrük daxilolmalarının, eləcə də icmal və dövlət büdcələri xərclərinin artması nəzərə alınaraq, əvvəldə qeyd etdiyim kimi, 2024-cü ilin aprel ayında cari il üzrə hökumətin makroiqtisadi proqnozları yenilənmişdir. Müvafiq olaraq İqtisadiyyat Nazirliyinin yenilənmiş proqnozunun baza ssenarisi ilə 121,3 milyard manat həcmində və yaxud ilkin

nəzərdə tutulmuş proqnozdan 3 milyard manat çox vəsait proqnozlaşdırılır. Qeyri-neft üzrə ÜDM isə 84,7 milyard manat həcmində və yaxud, qeyd olunduğu kimi, 600 milyon manat çox proqnoz edilmişdir. Yenilənmiş proqnoz, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və büdcə qaydası üzrə dövlət büdcəsində əlavə fiskal məkanının mövcudluğu 2024-cü il üzrə dövlət və icmal büdcələrinin gəlir və xərclərinə yenidən baxılması üçün zəmin yaradır. Bu əsasda "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq, dövlət büdcəsinin yenidən baxılması qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmuşdur.

Təqdim olunmuş dəyişikliklərlə dövlət büdcəsinin xərcləri 2 milyard 944 milyon manat məbləğində və yaxud təsdiq olunmuş yuxarı həddə qarşı 8 faiz artırılaraq 39 milyard 707 milyon manata çatdırılır. Dövlət büdcəsinin xərclərinin təklif olunan artımının 74 faizinin və yaxud 2 milyard 108 milyon manatlıq hissəsinin əlavə gəlir və daxilolmalar hesabına, yerdə qalan 26 faizinin və yaxud 764 milyon manatlıq hissəsinin dövlət büdcəsinin kəsirinin genişləndirilməsi hesabına qarşılanması nəzərdə tutulur. Müvafiq olaraq yenidən baxılma ilə dövlət büdcəsinin gəlirləri 2024-cü il dövlət büdcəsinin mövcud olan eyni göstəricisi ilə müqayisədə 6,4 faiz artırılaraq 36 milyard 353 manata çatdırılır. Dövlət büdcəsinin kəsiri isə yenilənmiş ümumi daxili məhsulun 2,8 faizinədək böyüdülərək 3 milyard 354 milyon manat təşkil edəcəkdir.

Dövlət büdcəsinin artan gəlirləri aşağıdakı mənbələr

hesabına formalaşacaqdır.

1. Əlavə vergi daxilolmaları hesabına 1 milyard 405 milyon manat, bunun 800 milyon manatı qeyri-neft-qaz sektorundan, 605 milyon manatı isə neft-qaz sektorundan vergilərin payına düşür.

2. Əlavə gömrük və idxalda vergi daxilolmaları hesabına 500 milyon manat.

3. Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-cü il üzrə fəaliyyəti nəticəsində əldə etdiyi mənfəətindən dövlət büdcəsinə ayırma hesabına 250 milyon manat.

4. Dövlət büdcəsi tərkibində nəqliyyat vasitələrinin utilizasiyası məqsədli büdcə fonduna daxilolma hesabına 25 milyon manat.

Dövlət büdcəsi kəsirinin 764 milyon manat artımının qarşılanması, əsasən, dövlət borc kağızlarının emissiyası 600 milyon manat və yaxud 78,5 faiz kəsirin, həmçinin sərbəst xəzinə qalığının 105,9 milyon manat və yaxud 14 faiz və dövlət büdcəsində məqsədli büdcə fondlarının qalıqları 58,4 milyon manat və yaxud 7,5 faiz hesabına təmin olunacaqdır.

Dəyişikliklər nəticəsində büdcə gəlirlərinin 48,9 faizi və yaxud 17 milyard 769 milyon manatı neft-qaz sektorunun, 51,1 faizi və yaxud 18 milyard 584 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşəcəkdir. Bu xüsusda qeyd etmək vacibdir ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulmuş transfertin məbləği dəyişməz qalır. Yenidən baxılma ilə dövlət büdcəsinin xərclərinin artımı hesabına aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşdirilməsi üçün əlavə maliyyə təminatı yaradılır:

işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işləri üçün

Böyük Qayıdış proqramı üzrə 1 milyard 160 milyon manat;

dövlətin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması üçün 807 milyon manat;

ölkənin digər regionlarında avtomobil yolu, elektrik enerjisi, su təchizatı və digər sahələr üzrə infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün 977 milyon manat.

Bununla yanaşı, yenidən baxılma ilə 2024-cü il üçün təsdiq olunmuş dövlət büdcəsinin 852 milyon manat məbləğində xərclərinin optimallaşdırılaraq yenidən bölüşdürülməsi hesabına yuxarıda qeyd olunan investisiya layihələrindən başqa, digər investisiya yönlü infrastruktur layihələrinin, həmçinin Osakada keçiriləcək "Ekspo 2025" Ümumdünya Sərgisində ölkəmizin iştirakının, beynəlxalq fəaliyyət və tədbirlər üzrə xərclərin, şəhərətrafı şərnişin daşınması və digər daşımalar üzrə dövlət tərəfindən subsidiyaların verilməsi, Nəqliyyat vasitələrinin utilizasiyası fondunun fəaliyyətə başlaması ilə bağlı və digər zəruri xərclərin maliyyə təminatı yaradılır. 2024-cü ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklərin edilməsi nəticəsində onun  xərclərinin 58 faizini və yaxud 23 milyard 24 milyon manatını cari xərclər, 37,8 faizini və ya 15 milyard 387 milyon manatını əsaslı xərclər, 3,3 faizini və ya 1 milyard 296 milyon manatını dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edəcəkdir. Onu da qeyd etmək yerinə düşər ki, əsaslı xərclər mövcud təsdiq olunmuş büdcə ilə müqayisədə 3 milyard 307 milyon manat və yaxud 27,4 faiz artacaqdır.

Yenidən baxılma ilə 2024-cü il üçün icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri 45 milyard 592 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən müvafiq olaraq gəlirlər üzrə

4 milyard 483 milyon manat və yaxud 11,5 faiz, xərclər üzrə isə 3 milyard 216 milyon manat və yaxud 7,6 faiz çoxdur. Bununla belə, icmal büdcənin kəsirinin məbləği təsdiq olunmuş göstəriciyə nisbətən 37,5 faiz və yaxud 1 milyard 267 milyon manat az olacaqdır, yəni daralacaqdır.

İcmal büdcənin tərkib hissəsi. Dövlət Neft Fondunun gəlirləri 14 milyard 109 milyon manat və ya cari ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 2 milyard 36 milyon manat, təxminən 17 faiz çox, xərcləri isə 12 milyard 867 milyon manat və yaxud təsdiq olunmuş göstərici ilə müqayisədə 4,7 milyon manat artıq olacaqdır.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla, 6 milyard 950 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 30 milyon manat və ya 0,4 faiz çoxdur.

İcbari tibbi sığorta fondunun gəlir və xərcləri bərabər olmaqla, 2 milyard 850 milyon manat nəzərdə tutulur ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 39 milyon manat və yaxud 1,4 faiz çoxdur.

İşsizlikdən sığorta fondunun gəlirləri və xərcləri bərabər olmaqla, təsdiq olunmuş məbləğdə, yəni 238 milyon manat səviyyəsində saxlanılır.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirlərinin və xərclərinin təsdiq olunmuş göstəriciyə nisbətən 22,9 milyon manat və yaxud 4,4 faiz artırılması, dövlət büdcəsindən muxtar respublikanın büdcəsinə ayrılan dotasiyanın isə 6,8 milyon manat və yaxud 2 faiz azaldılması nəzərdə tutulur. Yekunda muxtar respublikanın büdcəsinin gəlir və xərcləri bərabər olmaqla, 539,3 milyon manat təşkil edəcəkdir.

Əvvəlki illərin dövlət büdcəsinin icra təcrübəsindən çıxış edərək xüsusi ilə vurğulamaq istərdim ki, 2024-cü

ilin dövlət büdcəsinə yenidən baxılma nəticəsində onun gəlir və xərclərinin ilin sonuna gözlənilən nəticələrinə rəğmən, büdcə qaydası üzrə hədəf göstəricilərinin, yəni icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricilərinin müəyyən edilmiş hədlər daxilində icrası təmin olunacaqdır.

Hörmətli millət vəkilləri, çıxışımın əvvəlində qeyd etdiyim kimi, 2024-cü il dövlət və icmal büdcələrinə yenidən baxılma ilə düzəlişlərin edilməsinin əsas hədəfi ölkəmizin artan gəlirləri hesabına Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi prioritet dövlət vəzifələrinin və inkişafı gündəlikdə duran digər məsələlərin həlli üçün əlavə maliyyə təminatının yaradılmasıdır. Əminəm ki, siz – hörmətli millət vəkilləri təklif olunan dəyişiklikləri bəyənib təqdim olunmuş qanun layihəsinə səs verəcəksiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Samir müəllim, çox sağ olun. Hörmətli həmkarlar, gündəliyin 2-ci məsələsi “Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə, 3-cü məsələsi isə “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Bu qanun layihələrini Əmək  və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyev təqdim edəcək. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri, qonaqlar, hörmətli mətbuat nümayəndələri. 2024-cü ilin ötən dövrü üzrə ölkə iqtisadiyyatının artım templəri nəzərə alınmaqla, əhalinin sosial rifah

halının yüksəldilməsi istiqamətində aparılan ardıcıl tədbirlər icmal büdcənin mühüm tərkib hissəsi kimi "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsini zəruri etmişdir. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklikərin edilməsinə ehtiyacın yaranması, əsasən, Dövlət Sosial Müdafiə Fondunun gəlir mənbələri üzrə məcburi dövlət sosial sığorta haqlarında daxilolmaların faktiki icrasının yüksək artımla yerinə yetirilməsi ilə əlaqədardır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 2023-cü ildə təqdim edilmiş məlumatlarda 2024-cü il üçün ilkin olaraq orta aylıq əməkhaqqının proqnoz göstəricisi 980 manat göstərilmiş, dəqiqləşdirilmiş makroiqtisadi göstəricilərə əsasən isə bu göstəricinin 990 manat olacağı proqnozlaşdırılmışdır. Belə ki, qeyri-büdcə sektorunda əməkhaqqı artımları bu sektor üzrə məcburi dövlət sosial sığorta haqlarının artımını şərtləndirir. Bunu nəzərə alaraq Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün büdcəsində qeyri-büdcə sektoru üzrə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma məbləğinin dürüstləşdirilərək mövcud 3 milyard 387,1 milyon manatdan 190 milyon manat artırılaraq 3 milyard 577,1 milyon manata çatdırılması məqsədəmüvafiq hesab olunur.

Eyni zamanda, əmək pensiyalarının ödənilməsi xərclərinin məbləğinin 25 milyon manat artırılaraq 6 milyard 500 milyon manatdan  6 milyard 525 milyon manata çatdırılması təklif olunur.

Bununla yanaşı, fondun aparatının və yerli bölmələrinin saxlanılma xərcləri 5 milyon manat artırılaraq 135,1 milyon manata çatdırılmış, eləcə də pensiya və müavinətlər

üzrə bank əməliyyatlarının aparılması üzrə xərclər 30 min manat artırılmışdır.

Fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin, yəni transfertin məbləği 160 milyon manat azaldılaraq 1 milyard 232 milyon manat təşkil edəcəkdir. Beləliklə, fondun xərcləri 30 milyon manat və ya 0,4 faiz artırılaraq 6 milyard 949,9 milyon manata çatdırılmışdır.

Yekun olaraq, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin 2024-cü il üçün dürüstləşdirilmiş gəlirləri və xərcləri 30 milyon manat artaraq 6 milyard 949 milyon 860 min manat təşkil edəcəkdir.

Hörmətli həmkarlar, indi isə qısa olaraq "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə dair komitənin mövqeyini diqqətinizə çatdırmaq istəyirəm. İşsizlikdən sığorta fondunun 2023-cü il və cari ilin 4 ayı üzrə büdcə gəlirlərinin icra göstəricilərinin təhlilinə əsasən ilin sonuna işsizlikdən sığorta haqları üzrə mədaxillərin artımı gözlənilir. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində işsizlikdən sığorta haqları üzrə daxilolmaların 4 milyon 700 min manat artırılaraq 179 milyon 976 min 800 manatdan 184 milyon 676 min 800 manata çatdırılması təklif olunur. Artım qeyri-büdcə sektoru üzrə sığorta haqları hesabına baş verəcəkdir.

Cari ilin xərc məbləğində dürüstləşmə nəzərdə tutulmadığından 2023-cü ilin sonuna İşsizlikdən sığorta fondunun istifadə olunmamış hissəsi 57 milyon 953 min

200 manatdan 53 milyon 253 min 200 manata endirilmiş və ya 4 milyon 700 min manat azaldılmışdır.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təqdim edilmiş qanun layihələri ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanmaqla, sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiqdir, işsizlikdən sığorta və sosial müdafiə sisteminin daha da dayanıqlı olması üçün etibarlı təminat yaradacaqdır.

Son olaraq, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun dürüstləşdirilmiş büdcələrinin hazırlanmasında əməyi olan hər kəsə, o cümlədən büdcə layihəsinə dair geniş və ətraflı təhlilə əsaslanan rəy vermiş Hesablama Palatasına minnətdarlığımızı bildiririk.

Hər 2 qanun layihəsi komitədə ətraflı müzakirə olunmuş və komitə üzvlərinin yekdil rəyinə görə, birinci oxunuşda konseptual baxımdan Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Qanun layihələrini dəstəkləməyinizi sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu 2 məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün, Tahir müəllim, xahiş edirəm, buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qeyd edildiyi kimi, 2024-cü ilin ötən dövrü üzrə ölkə iqtisadiyyatının artım templəri nəzərə alınmaqla əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində aparılan ardıcıl tədbirlər icmal büdcənin mühüm tərkib hissəsi olan "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsini zəruri etmişdir. Belə ki, təqdim

edilmiş məlumatlara görə, 2024-cü il üçün ilkin olaraq orta aylıq əməkhaqqının proqnoz göstəricisinin 980 manat göstərilməsinə baxmayaraq, yeni təqdim edilmiş göstəricilərdə bu rəqəmin 990 manat olması proqnozlaşdırılır. Qeyri-büdcə sektorunda əməkhaqqı artımları, habelə aparılan şəffaflaşma tədbirləri nəticəsində əldə olunan ümumi artım fondun gəlirlərinin təsdiq olunmuş layihədəki rəqəmdən daha çox yüksəlməsini şərtləndirəcək.

Beləliklə, bütün bunları nəzərə alaraq Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsində qeyri-büdcə sektoru üzrə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma məbləğinin dəyişdirilərək, 190 milyon manat artırılaraq 3 milyard 387,1 milyon manatdan 3 milyard 577,1 milyon manata qədər artırılmasını məqsədəmüvafiq hesab edirik.

Fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləğinin 160 milyon manat azaldılaraq 1 milyard 232 milyon manat təşkil etməsinə də rəyimiz müsbətdir.

Beləliklə, komitənin qanun layihəsi ilə bağlı rəyi müsbətdir. Həmkarlarımı layihəni dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, Hesablama Palatası hər 3 qanun layihəsinə dair rəy vermişdir. Bu barədə məlumat vermək üçün mən palatanın sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Buyurun, Vüqar müəllim.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və nü-

mayəndələri. Hesablama Palatası 2024-cü il üzrə dövlət büdcəsinin yenidən baxılan layihəsinə dair rəyini qısa müddətdə Milli Məclisə təqdim etmişdir. Rəydə 3 əsas suala mövqeyimizi ifadə etmişik. Bunlardan birincisi, qanun layihəsinin və onunla birlikdə təqdim edilən sənədlərin hüquqi aktların meyarlarına uyğunluğu, ikincisi, layihənin makrofiskal çərçivəyə adekvatlığı və üçüncüsü, büdcənin əsas parametrlərinin düzgünlüyü və tamlığı barədədir.

Çıxışımda hər üç istiqamət üzrə əsas nəticələri səsləndirməyə çalışacağam. Nəticələrə keçməzdən əvvəl bildirim ki, hazırkı yenidən baxılma son 20 il ərzində sayca 13-cüdür. Yenidən baxılma son illərdə büdcənin formalaşan konstruksiyası üçün fiskal intizamın təmin edilməsi baxımından xüsusi diqqətdə saxlanılmalıdır. Təsdiq edilmiş qanunun 17 maddəsinin 4-ü istisna olmaqla, bütün digər maddələrində dəyişiklik nəzərdə tutulur. Belə ki, gəlir, xərc və kəsirin ümumi məbləğində, gəlirlərin mədaxil mənbələrinin, o cümlədən mərkəzləşmiş gəlirlərin mənbələrindən, xərc istiqamətlərindən, o cümlədən borca xidmət xərclərindən, şəhər və rayonlar üzrə gəlirlərin, yerli gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşmiş gəlirlərə aid olan hissəsinin, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşmiş xərclərin ayrılması nəzərdə tutulan vəsaitin, icmal büdcənin xərclərinin məbləğində dəyişiklik nəzərdə tutulur.

Bütövlükdə, qanun layihəsi üzrə aparılan dəyişiklikləri iki qrupa bölmək olar. Belə ki, nəzərdə tutulan dəyişikliklər, bir tərəfdən, əlavə maliyyə təminatının gəlir potensialının reallaşdırılması üçündür və kəsirin genişləndirilməsi hesabına təmin olunması, digər tərəfdən, büdcədə aparılan yerdəyişmələr və uçot ilə əlaqəlidir.

“Büdcə sistemi haqqında” Qanunun 23.7-ci maddələri üzrə nəzərdə tutulmuş bütün sənədlər büdcə zərfinə daxil edilmişdir.

Dürüstləşmiş proqnozlarda neft-qaz sahəsində 2,4 milyard manat məbləğində əlavə dəyərin formalaşacağı gözlənilir ki, bu da, əsasən, qiymət amili ilə bağlıdır. Son 10 ildə ikinci dəfədir ki, büdcə zərfində neftin qiyməti 75 ABŞ dolları və ya daha çox nəzərdə tutulmuşdur. Yenilənən büdcə layihəsinə əsasən büdcə qaydasının bir göstəricisinə əməl olunmuş, digərinə isə riayət edilməmişdir. Yenidən baxılan layihə üzrə icmal büdcənin baza xərclərinin artımı icmal büdcənin qeyri-neft gəlirinin artımını üstələmişdir. Qeyri-neft-qaz sektoru üzrə ümumi daxili məhsulda artım istiqamətində dəqiqləşmə çox cüzi olmuşdur. Əlavə olaraq bildirim ki, icra prosesində qeyri-neft ümumi daxili məhsulun, eləcə də qeyri-neft gəlirlərinin artımı, baza xərclərinin isə proqnozdan az icra olunması fakt göstəricisi üzrə büdcə qaydasına əməl olunacaq. Aparılan təhlillər büdcə qaydasının digər göstəricisi olan dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hədəf çərçivəsində olduğunu göstərir. 2024-cü ilin dövlət büdcəsinin layihəsi ilə birlikdə hazırlanan və təqdim edilən sənədlərdə müvafiq dövlət orqanları tərəfindən əsas fiskal risklər şərh olunmuşdur. Hesablama Palatası tərəfindən aparılan təhlillər həmin fiskal risklərin cari ilin 5 ayında mənfi təsirlərlə reallaşmadığını göstərmişdir. Dürüstləşmə bəzi risklərin aradan qalxdığının da siqnallarını verir.

Gəlirlər üzrə əsas nəticələr. 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma zamanı dövlət büdcəsinin gəlirləri 36,4 milyard manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəricidən 2,2 milyard manat çoxdur. Qanun

layihəsinə əsasən dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş göstəricilərlə müqayisədə 10 mənbə üzrə artım, 2 mənbə üzrə azalma ilə proqnozlaşdırılmış, 2 yeni mənbə üzrə daxilolmalar nəzərdə tutulmuş, digər mənbələr isə sabit saxlanılmışdır. Artımın əsas hissəsinin hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, gömrük rüsumları hesabına təmin olunacağı göstərilir. 2 mənbə üzrə təsdiq olunmuş büdcə ilə müqayisədə azalma nəzərdə tutulmuşdur. Bunlardan biri fiziki şəxslərin gəlir vergisi, digəri isə sair daxilolmalardır. Sair daxilolmalar üzrə azalma qanun layihəsində həmin daxilolmaların bir mədaxil mənbəyindən çıxarılaraq digərində nəzərdə tutulması ilə əlaqədardır. Başqa sözlə, uçot ilə bağlıdır.

Yenidən baxılan büdcə layihəsində gəlirlər üzrə qeyri-neft-qaz sektorunda proqnozlaşdırılan artım müvafiq sektor üzrə ÜDM-in proqnozuna adekvat olmamışdır. Bununla belə, hesab edirik ki, qeyri-neft sektorundan daxilolmalarda aparılan uğurlu şəffaflaşma prosesi artıq pik səviyyəni ötmüşdür. Neft sektoru üzrə artımların proqnozlaşması şəraitində qeyri-neft sektoru üzrə gəlirlərin daha sürətli artımla nəzərdə tutulması neft gəlirlərinin büdcədə payının azalmasına səbəb olmuşdur, yəni 50,2 faizdən 48,9 faizə enmişdir. Yenidən baxılma zamanı dövlət neft sektorundan transferlərin sabit saxlanması da bu bölgüyə müsbət təsir etmişdir. Cari ilin ötən dövründəki faktiki daxilolmalar, il sonu gözlənilən makroiqtisadi göstəricilər, habelə yenidən baxılan layihədə xərclər üzrə edilən dəyişikliklər, vergitutma bazasının genişlənməsi həm vergi orqanları, həm də gömrük orqanları üzrə büdcə gəlirlərinin proqnozunun yerinə yetirilməsinə münbit şərait formalaşdırmışdır. Yenidən baxılma zamanı bəzi makrogöstəricilər üzrə dəqiqləşmiş məlumatların məhdud

olması, təqdim edilməsi dövlət büdcəsi gəlirlərinin müvafiq hesablanma qaydasına uyğunluğunu qiymətləndirməyi çətinləşdirmişdir. Lakin həmin məhdud məlumatlar əsasında aparılan təhlillər bəzi mədaxil mənbələri üzrə gəlirlərin proqnozunun qayda ilə hesablanan göstəricidən çox olduğunu göstərir.

Hörmətli millət vəkilləri, qanun layihəsinə əsasən dövlət büdcəsi xərcləri 39,7 milyard manat nəzərdə tutulur. Yenidən baxılma zamanı xərclərdə nəzərdə tutulmuş artımın əsas hissəsi dövlətin prioritet funksiyalarının maliyyə təminatının reallaşmasına dəstək verəcəkdir. Qanun layihəsinə əsasən dövlət büdcəsi xərclərinin funksional təsnifatının iki bölməsi istisna olmaqla, digər bütün bölmələr üzrə dəyişiklik nəzərdə tutulmuşdur. Yenidən baxılan dövlət büdcəsi layihəsində dövlət borcuna xidmətlə bağlı xərclərdə əhəmiyyətli azalma, cari və əsaslı xərclərin məbləğində isə artım proqnozlaşdırılmışdır. Əsaslı xərclər ilkin təsdiq edilmiş məbləğlə müqayisədə 3,3 milyard manat artmaqla 15,3 milyard manat nəzərdə tutulur. Bu, 2023-cü ilin icra göstəricisindən təxminən 300 milyon manat çoxdur. Hesab edirik ki, icra prosesində büdcədə aparılan digər dəyişikliklər də əsaslı xərclərin il yekunları üzrə bir qədər də artmasına şərait yaradacaqdır.

Aparılan təhlillər yenidən baxılan dövlət büdcəsi layihəsində dövlət borcuna xidmət xərclərinin azaldılan hissəsinin büdcədənkənar dövlət fondu və təminat fondu vasitəsi ilə icra ediləcəyini deməyə imkan verir. Cari xərclərin qeyri-neft gəlirləri hesabına təmin olunma səviyyəsi təsdiq olunmuş büdcə ilə müqayisədə artmışdır. Bu göstərici 5,8 faiz bənd artaraq 80,7 faiz təşkil etmişdir. Qeyd edək ki, icra prosesində cari xərclərin bir qədər

azalması və qeyri-neft gəlirlərinin proqnozdan çox icrası bu nisbətdə bir qədər də yaxınlaşmağa səbəb ola bilər. Bölüşdürülməmiş xərclərin bir hissəsi dövlət büdcəsinə yenidən baxılma zamanı azaldılsa da, bəzi yeni istiqamətlər yaradılmışdır ki, nəticədə icra prosesində bölgüsü aparılan xərclərin payı ümumi büdcədə artmışdır. Büdcə kəsirinin həcmi proqnozlaşdırılan büdcə göstəricisi ilə müqayisədə 764,3 milyon manat artacaqdır. Son illərdə büdcədə aparılan dürüstləşmələr arasında ilk dəfədir ki, büdcə kəsirinin həcmi ilkin proqnozla müqayisədə bu qədər artır. Lakin dövlət büdcəsinin həm neft, həm də qeyri-neft sektoru üzrə gəlirlərində mövcud potensialın reallaşması, xərclərin isə proqnoza nisbətən az icra edilməsi ehtimalları büdcə kəsirinin proqnozlaşdırılan məbləğdən az olacağını deməyə imkan verir.

Hörmətli millət vəkilləri, ümumiyyətlə, rəydə geniş məlumatların əks etdirildiyini vurğulayaraq dürüstləşmə ilə əlaqədar təqdim edilən dövlət büdcəsinin, Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən sığorta fondu üzrə təqdim edilən layihələrin Hesablama Palatası tərəfindən tövsiyə edildiyini sizə bildirmək istərdim. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, indi biz qanun layihələrinin müzakirəsinə başlayırıq. Buyurun, yazılın. Çıxış etmək istəyənlər...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Necə? Təklif var ki, çıxışlar 5 dəqiqəyədək olsun. Hamı razıdır? Təklifi səsə qoymağa ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, mən ilk öncə Sizi TürkPA-nın 13-cü Plenar iclasının

Azərbaycanda uğurla təşkil edilməsi münasibəti ilə təbrik edirəm. Kifayət qədər ciddi bir tədbir idi. Qeyd edim ki, cənab Prezidentin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq, Milli Məclis Sizin sədrliyinizlə beynəlxalq təşkilatlarda fəal təmsil olunur. Bu gün Milli Məclisin dünyanın 100-dən çox ölkəsinin təmsil olunduğu üç beynəlxalq təşkilata sədrlik etməsi parlament tarixində bir ilkdir, uğurdur. Mən bütün bunlara görə, təbii ki, Sizi təbrik edirəm.

Təqdim olunan layihə ilə bağlı, əvvəla, qeyd etmək istərdim ki, 2024-cü ilin büdcə layihəsində dürüstləşmənin aparılmasının fundamental iqtisadi əsasları var. Belə ki, 4 aylıq yekunlar və 2024-cü il üçün dürüstləşmiş, yeniləşmiş iqtisadi proqnozlar praktik olaraq ondan xəbər verir ki, cənab Prezident tərəfindən yeni dövr üçün müəyyənləşdirilmiş hədəflərə uyğun olaraq, iqtisadi inkişaf templəri daha da güclənib. Nəzərə alsaq ki, ÜDM 2024-cü il üçün 2,4 faiz proqnozlaşdırılmışdı, yeni dürüstləşmiş proqnozlara əsasən bu rəqəm 3,8 faiz olacaq. Qeyri-neft ÜDM 4,6 faiz proqnozlaşdırılmışdı, bu rəqəm isə 5,5 faiz olacaq. Neft sektorunda 1,7 faiz azalma proqnozlaşdırılsa da, yeni dürüstləşmiş proqnoza əsasən 0,8 faiz artım qeydə alınacaq.

Biz makroiqtisadi göstəricilərin yaxşılaşması fonunda inflyasiya səviyyəsinin azalmasını müşahidə edirik. Əgər inflyasiya səviyyəsi 4 faiz proqnozlaşdırılırdısa, yeni proqnoza əsasən bu, 2,7 faizdir. Bu da bir daha təsdiq edir ki, bu gün müzakirə etdiyimiz qanun layihəsi cənab Prezidentin rəhbərliyi ilə ölkədə formalaşmış makroiqtisadi stabilliyin nəticəsidir. Təbii ki, bu qanun layihəsinin təqdim olunması üçün fundamental iqtisadi əsaslar vardır. Məhz makroiqtisadi stabillik artımların dövlət büdcəsində

dürüstləşmiş şəkildə qeyri-neft sektoru hesabına formalaşacağından xəbər verir. Dürüstləşmiş büdcəyə əsasən dövlət büdcəsinin gəlirləri 2 milyard 180 milyon manat artırılacaq. 36 milyard 353 milyon manatlıq yeni büdcə gəlirləri təsdiq olunur. Bu, müstəqillik dövrünün ən böyük büdcəsidir.

Digər tərəfdən, bunun çox mühüm məqamlarından biri ondan ibarətdir ki, artırılmış gəlirlərin 72,2 faizi qeyri-neft sektorunun payına düşür. Bu, əslində, qeyri-neft sektorunun yalnız ÜDM-in formalaşmasında deyil, eyni zamanda, fiskal gəlirlərimizin formalaşmasında da drayverə çevrilməsi anlamına gəlir. Nəticə etibarı ilə 2024-cü ilin dürüstləşmiş büdcəsində büdcə gəlirlərinin təxminən yarısı məhz qeyri-neft sektorunun payına düşəcək. Bu kontekstdən bu sənəd bir daha təsdiq edir ki, fiskal gəlirlərimizin dayanıqlılığı da möhkəmlənməkdədir.

Təklif olunan artımlarla bağlı burada iki mühüm məqam var ki, onları xüsusən qeyd etmək lazımdır. Cənab Prezident TürkPA-nın toplantısına qatılan iştirakçılarla görüşdə də bir daha qeyd etdi ki, bizim üçün prioritet məsələ işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması, eyni zamanda, milli təhlükəsizliyimizin daha da gücləndirilməsidir. Cənab Prezidentin dünənki görüşdə də qeyd etdiyi kimi, bu gün, əslində, Ermənistanla sülh müqaviləsinin imzalanmaması və bununla bağlı müəyyən maneələrin olması müdafiə qabiliyyətimizin daha da gücləndirilməsi üçün zəmin yaradır.

Təklif olunan qanun layihəsi, bir tərəfdən, işğaldan azad olunmuş ərazilərimizə daha çox vəsaitin ayrılmasına, digər tərəfdən isə, müdafiə qabiliyyətimizin daha da gücləndirilməsinə zəmin yaradır. Xüsusən yeni dürüstləşmiş dövlət büdcəsindən 7 milyard 126 milyon manat vəsaitin

yönəldilməsi müdafiə və milli təhlükəsizliyimizin daha da gücləndirilməsinə xidmət edəcək. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizə 4 milyard 855 milyon manat vəsait yönəldiləcək. Nəticə etibarı ilə büdcə xərclərinin təxminən üçdə biri işğaldan azad olunmuş ərazilərimizin, eləcə də müdafiə qabiliyyətimizin daha da gücləndirilməsinə yönəldiləcək ki, bu da cənab Prezident tərəfindən müəyyənləşdirilmiş prioritet istiqamətlərə uyğundur. Bütün bunları nəzərə alaraq mən büdcə layihəsini dəstəkləyirəm və qəbul olunmasını tövsiyə edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, çox ciddi qanun layihələridir və ciddi də münasibət tələb olunur. Mən başa düşürəm, müzakirələrdə çıxış etmək istəməyənlər artıq zaldan çıxdılar. Xahiş edirəm, bir-birimizə diqqətlə qulaq asaq. Elşən Musayev. Buyurun.

**E.Musayev**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, hər birinizi salamlayıram. İlk öncə qeyd edim ki, büdcədə dəyişikliyi nəzərdə tutan layihə yetərincə mükəmməl hazırlanıb və heç şübhəsiz, ona müsbət səsimi verəcəyəm. Bir məqama xüsusi toxunmaq istəyirəm. Şəxsən mən artıq bir neçə ildir, bənzər müzakirələrdə yerli problemləri qaldırmıram və bunun da çox sadə səbəbləri var. Birinci səbəb odur ki, son zamanlar hakimiyyətin digər qolları ilə kommunikasiya kifayət qədər yüksəlib və məlum problemlər alternativ formatlarda öz həllini tapır. Digər səbəb isə odur ki, biz müharibədən yeni çıxmışıq və ona görə də bütün istiqamət, hədəf, prioritet, son 4 ildə düşündüyümüz kimi, yenə məhz Qarabağ olmalıdır. Biz Qarabağın dirçəlməsinə təkcə mənəvi rahatlığımız kimi deyil, bayaq Tahir

müəllim də qeyd etdi, həm də iqtisadiyyatımıza, gələcək büdcəmizə qoyulacaq sərmayə, yatırım kimi baxmalıyıq.

Səsləndirmək istədiyim konkret təkliflərim isə bunlardan ibarətdir. Bizim Qarabağda 3 hava limanımız var. Hesab edirəm ki, həmin hava limanları artıq vətəndaşların da istifadəsinə, ixtiyarına verilməlidir. Biz rəsmi formatda bir neçə dəfə təyyarə ilə Qarabağa uçmuşuq. Bunun necə böyük bir zövq olduğunun fərqindəyik. Kaş ki, hörmətli Azərbaycan vətəndaşları da həmin zövqü yaşamış olsunlar. Mən hökumət üzvlərini əmin etmək istəyirəm ki, burada rentabellik ən yüksək səviyyədə olacaq.

Eyni zamanda, biz həmin Qarabağ hava limanından xaricə və xaricdən də Qarabağa reyslər aça bilərik. Burada rentabellik necə olacaq, onu dəqiq deyə bilmərəm, amma bunun təbliğatı və siyasi əhəmiyyəti həddindən artıq böyük olacaq. Çünki Azərbaycana səfər edən turistlər artıq mütləq şəkildə ölkə həqiqətlərini öyrənəcəklər, Qarabağı, keçmişlə bu gün arasındakı fərqi görəcəklər, erməni vandallığı barədə məlumatlı olacaqlar.

AZAL-dan söhbət düşmüşkən, mən illərlə bu qurumu ən sərt formada tənqid etmişəm və hesab edirəm ki, bunu layiqli formada etmişəm. Bu gün də layiq olduqları formada təqdir etmək istəyirəm. Çünki, həqiqətən də, AZAL-ın rəhbərliyində baş verən dəyişiklikdən sonra, xüsusən də hörmətli Samir Rzayevin, onun komandasının timsalında böyük uğurlara imza atılıb, təyyarə biletlərinin qiyməti ən az 20 faiz düşüb, xaricdə təhsil alan tələbələrə böyük güzəştlər edilib, keyfiyyət də necə lazımdır, təmin edilir. Bunu söyləməyi özümə borc bildim.

İkinci məsələ diasporla bağlıdır. Yenə də düşünürəm ki, burada maliyyə artımı davamlı şəkildə olmalıdır. Bunun təfərrüatlarını sadalamayacam, hamımıza məlumdur.

Həssas məqamdır. Heç bəlkə müharibə zamanı da vəziyyət o qədər həssas olmayıb. Sadəcə, bir şeyi deyim. Əgər əvvəl biz, sadəcə, erməni lobbisi ilə mübarizə aparırdıqsa, indi Fransa, Niderland, Argentina, Kanada və digər ölkələrin lobbiləri ilə mübarizə aparırıq.

Digər məsələ. Mən zaman-zaman buna toxunmuşdum, yenə də israrla bildirmək istəyirəm. Bu, su hövzəsindən, Azərbaycanın Xəzər dənizindən istifadəsi ilə bağlıdır. Xüsusən də indi – tıxacın bu qədər qlobal bir problemə çevrildiyi ərəfədə. Mən ekspertlərlə də müzakirələr aparmışam. Ən azından Xəzər dənizindən istifadə etməklə biz 12 ərazi vahidini birləşdirə bilərik. Bu su hövzəsindən istifadə etməliyik.

Nəhayət, qeyd etmək istədiyim son məsələ xarici diplomatlarımızla bağlıdır. Onların mühafizəsi daha da gücləndirilməlidir. Əvvəl biz onların qaldıqları məkanın təhlükəsizliyi üzərindən danışırdıq. Amma müəyyən ölkələrdə onların o binalardan çıxması belə artıq təhlükəlidir. Elə bayaq adını çəkdiyim Fransa, Niderland və sair ölkələr. Orada səfirlərimizin şəxsi mühafizəsi təmin edilməlidir. Onlar bu gün həmin ölkələrdə təhlükə içindədirlər, demək olar ki, minanın üstündə gəzirlər. Azərbaycanda sabitlik var. Mən, əsasən, xarici səfərlərə gedib-gələndən sonra düşünürəm ki, Azərbaycandan başqa heç bir yerdə sabitlik yoxdur. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Nurlan Həsənov. Buyurun.

**N.Həsənov**. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar, hörmətli hökumət nümayəndələri. Son illərdə ölkəmizin qazandığı tarixi nailiyyətlər, ərazi bütövlüyümüzün bərpa edilməsi, Qarabağa qayıdış proqramı çərçivəsində həyata keçirilən tədbirlər, ordumuzun hərbi gücünün və müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, təhlükəsizlik və

infrastruktur layihələrinin həcminin əhəmiyyətli dərəcədə artırılması yeni maliyyələşmə tələbatı yaratmış, eyni zamanda, dövlət büdcəsi gəlirlərimizin gözləniləndən yüksək olması 2024-cü il dövlət büdcəsinə yenidən baxılmaq ehtiyacını yaratmışdır.

Bu gün cənab Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Bir zamanlar işğal altında qalmış, dağıdılmış şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz yenidən bərpa edilir, vətəndaşlarımız sülh şəraitində öz doğma yurdlarına qayıdırlar. Bərpa və yenidənqurma prosesi sürətli, sistemli və planlı şəkildə həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzurda yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su elektrik stansiyaları tikilir. 2024-cü il büdcə dəyişikliyinin əsas hədəfi də məhz Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesinin sürətlə davam etdirilməsi, soydaşlarımızın öz ata-baba yurdlarına təhlükəsiz şəkildə geri dönməsi və davamlı iqtisadi aktivliyin təmin olunmasına yönəlmiş layihələrin icrasının davam etdirilməsidir.

Müharibədən keçən qısa zaman kəsiyində Qarabağda və Şərqi Zəngəzurda bu dərəcədə sürətli quruculuq işlərinin aparılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur. Bu da müstəqil Azərbaycanın gücünün, cənab Prezident İlham Əliyevin Azərbaycan sevgisinin və sarsılmaz siyasi iradəsinin nəticəsidir. Yaxın gələcəkdə regionumuzda sülhün tam təmin olunması, yeni nəqliyyat dəhlizlərinin açılması ölkəmizin siyasi-iqtisadi və geostrateji əhəmiyyətini daha da artıracaqdır. Ölkəmiz dünyada öz nüfuzunu artırmaqla bu gün qlobal problem-

lərin həllində də daha fəal rol oynamağı bacarır. COP29 kimi beynəlxalq bir tədbirin ölkəmizdə keçirilməsi bu prosesin, sadəcə, bir başlanğıcıdır.

Azərbaycan xalqının rifahını daha da yaxşılaşdırmaq, Qarabağda və Şərqi Zəngəzurda quruculuq işlərinin sürətlə davam etdirilməsini təmin etmək, ölkəmizi yeni zirvələrə çatdırmaq məqsədi ilə büdcə dəyişikliyi istiqamətində atılacaq addımların uğurlu olacağına əminəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar və media mənsubları. Bu gün biz 2024-cü il dövlət büdcəsinə dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirə edirik. Sənəddə dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirən bir sıra amillər var. Bu amillər, əsasən, faktiki makroiqtisadi göstəricilərdir. Belə ki, 2024-cü ilin 4 ayına baxsaq, ölkədə ÜDM-də əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz artım, qeyri-neft sektoru üzrə 7,7 faiz artım, xarici ticarət hesabında 2,5 milyard dollarlıq müsbət saldo, xam neftin 1 barelinin orta ixrac qiymətinin 87,3 dollar olması müşahidə olunur ki, bu da büdcədə nəzərdə tutulan qiymətdən 27,3 dollar çoxdur. Bütün bu qeyd olunanlar büdcənin gəlirlərinin artımını şərtləndirir. 4 ay ərzində büdcə gəlirləri proqnoza qarşı 1,1 milyard manat artmışdır. Dövlət büdcəsində 2,5 milyard manatlıq profisit qeydə alınmışdır. Biz bu rəqəmlərlə tanışıq deyə, vaxtınızı çox almaq istəmirəm.

Layihədən göründüyü kimi, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti və yenidənqurma işlərinin sürətləndirilməsi, Böyük Qayıdışın təmin edilməsi, ölkənin müdafiə və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi,

beynəlxalq fəaliyyət, ölkəmizdə keçirilən bir sıra beynəlxalq tədbirlər və digər istiqamətlər üzrə 3,8 milyard manata yaxın əlavə vəsait tələb olunur. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa ediləndən sonra müdafiə və milli təhlükəsizlik, hüquq mühafizə sahəsində islahatların davam etdirilməsi, ordunun hərbi sursat və maddi-texniki bazasının müasirləşdirilməsi daim diqqət mərkəzində olmalıdır. Nəzərə almalıyıq ki, 1 gündən də az müddətdə həyata keçirilən antiterror əməliyyatı nəticəsində təxminən 2,5 min kvadrat kilometr ərazi separatçılardan təmizlənmişdir. Hazırda bütün rayonlarda müdafiə, milli təhlükəsizlik və hüquq mühafizə orqanlarının müvafiq strukturları yaradılır, onların maddi-texniki bazası qurulur. Qeyd olunanlarla əlaqədar olaraq müvafiq xərc maddəsi üzrə, ümumilikdə, əlavə 807 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına, iqtisadi aktivliyin təmin edilməsinə yönəldilən yenidənqurma və bərpa işlərinə son 3 ildə 12 milyard manat vəsait ayrılmışdır.

2024-cü ilin büdcəsində müvafiq istiqamət üzrə 4 milyard manat vəsait nəzərdə tutulmuşdur, lakin qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün əlavə olaraq 1 milyard 160 milyon manat vəsaitin ayrılmasına ehtiyac vardır. Eyni zamanda, bir sıra infrastruktur layihələrinin, enerji, su təchizatı, avtomobil yolları və sair işlərin maliyyələşdirilməsinə də əlavə vəsaitlərin ayrılması zəruridir.

Cənab Prezident İlham Əliyevin apardığı irimiqyaslı

daxili və xarici siyasət öz bəhrəsini verməkdədir. Xalqımız uzun müddət siyasətin nəticəsinin – ölkəmizin hərtərəfli inkişafının şahidi olacaqdır. Nəyi, nə vaxt və necə edəcəyini dəqiq bilən liderimiz Azərbaycanı dünya ölkələri içərisində nüfuzlu dövlətə çevirmişdir. Artıq ölkəmizin iştirakı olmadan, bizimlə hesablaşmadan regionda heç bir layihə baş tutmur.

Dövlət başçısının təşəbbüsü ilə Milli Məclisə təqdim olunan bu qanun layihəsini tam dəstəkləyirəm və ona səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr və hörmətli iclas iştirakçıları. Mən də öz növbəmdə Sizi, həmkarlarımızı, Milli Məclis Aparatını TürkPA-nın 13-cü Plenar iclasının uğurlu təşkili və keçirilməsi münasibəti ilə təbrik edirəm.

Qanun layihəsi növbəti dəfə nümayiş etdirir ki, ölkəmizdə bütün istiqamətlərdə həyata keçirilən fəaliyyətin əsasında çox ciddi konsepsiya dayanır. Ayrıca nəzərə almaq lazımdır ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" üzrə də fəaliyyətlər çox uğurla reallaşdırılır. Bu prioritetlər içərisində işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri, səmərəli məskunlaşmanın şərtləndirilməsi istiqamətində də keyfiyyətli işlər həyata keçirilməkdədir.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın da uğurla həyata keçirilməsini görürük. Büdcəyə təklif olunan dəyişikliklər, sözsüz ki, bu istiqamətdə keyfiyyəti əhəmiyyətli dərəcədə artırmış olacaqdır.

İşğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma, bərpa və digər işlərin görülməsi istiqamətində öncədən

müəyyənləşdirilmiş təxminən 7,8 milyard manatın 9,9 milyard manata qədər yüksəldilməsi, yəni 27 faizə qədər, xüsusən diqqət çəkmək istədiyim sahədə – müdafiə və milli təhlükəsizliyin təmin olunması istiqamətində xərclərin 6,4 milyard manatdan təxminən 7,1 milyard manata qədər artırılması, sözsüz ki, bizim gələcək inkişafımızın yeni tarixi mərhələsində qarşımıza qoyduğumuz milli hədəflərə nail olunmasında çox təsirli amil rolunda çıxış edəcəkdir.

Nəzərə almaq lazımdır ki, bu gün Cənubi Qafqaz regionunda geosiyasi proseslər də çox ciddi turbulentlik kəsb etməkdədir. Bu, bir daha nümayiş etdirir ki, atılan addımların istiqaməti doğrudur. Azərbaycan bu gün təkcə öz milli təhlükəsizliyini deyil, bütövlükdə, Cənubi Qafqaz regionunda təhlükəsizliyin təmin olunması missiyasını həyata keçirməkdədir.

Bir neçə gün öncə Ermənistanın baş naziri Paşinyan Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinə və Avropa Şurasına israrla müraciət edərək Ermənistanla həmin subyektlər arasında təhlükəsizlik sahəsində razılaşmanın imzalanmasını tələb edib. Bu isə onu göstərir ki, aprelin 5-də baş tutmuş görüşün davamında həm Ermənistan tərəfi, həm də Qərb dairələri israrlıdırlar. Sözsüz ki, Cənubi Qafqazda Azərbaycanın iradəsi ilə, dövlət başçımız cənab İlham Əliyevin strateji baxışları sayəsində keyfiyyətcə yenilənmiş təhlükəsizlik mühitinə yeni təhdidlər ortaya qoya bilər. Bu, növbəti dəfə nümayiş etdirir ki, müdafiə və milli təhlükəsizliyin təmin olunması istiqamətində xərclərin artırılması, bütövlükdə, regionun rifahına xidmət edir.

Sözsüz ki, qanun layihəsinin bütün elementləri haqqında kifayət qədər müsbət sözlər söyləmək olar. Ümumilik-

də, hesab edirəm ki, təklif olunan dəyişikliklər ölkənin gələcək inkişafında çox təsirli amil olacaq. Sağ olun.

Sədrlik edən. Sağ olun. Siyavuş müəllim, yazılmısınız. Sualdır, deyəsən, ya da təklifdir. Təklif? Buyurun, 1 dəqiqə.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri. Büdcə layihəsi təqdim olunubdur. Bununla bağlı hörmətli nazirimiz, hörmətli komitə sədrimiz, məruzəçilər ətraflı şəkildə danışdılar. Buna etiraz edən bir nəfər də yoxdur. Gələcəkdə ikinci oxunuş varsa... Mənim təklifim odur ki, əgər etiraz edən yoxdursa, kiminsə təkidi varsa, təkidlə çıxış etmək istəyirsə, buyursun, çıxış etsin. Amma görürəm ki, çıxışların hamısı eynidir, fikirlər təkrar edilir. Hamı deyir ki, müdafiə xərci lazımdır, yaranıbdır, işğaldan azad edilmiş ərazilərdə tikinti aparılmalıdır, qeyd olunubdur, əlavə xərclər olunmalıdır, olunubdur. Əlavə nə fikir söylənir? Hamımız səs verməklə bunu dəstəkləyirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, tək Siz görmürsünüz, mən də buradan görürəm ki, hamı razıdır. Ancaq təcrübə göstərir ki, bu dəqiqə mən səsə qoyan kimi təkidlər olacaq. Artıq təkidləri də görürəm. Mən bu təkidləri görməyə bilmərəm. Hörmətli həmkarlar, hamı razıdırsa, mən səsvermə yolu ilə bu dəqiqə qərar qəbul edəcəyəm, yaxud da biz çıxış edəcəyik. Təklif varsa, səsə qoyaq. Mən xahiş edirəm, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 82 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə xahiş edirəm, "İşsizlikdən sığorta fondunun

2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirəyə təqdim edilir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, Sizdən xahiş edirəm, buyurun, münasibət bildirin.

**T.Mirkişili.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin plenar iclasda birinci oxunuşda müzakirəsi zamanı layihə haqqında Milli Məclis üzvlərinə ətraflı məlumat verilmişdir. Qanun layihəsi və hesabat İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ikinci oxunuş üçün müzakirə edilmiş və Milli Məclis üzvlərinə rəyimiz təqdim olunmuşdur. Hazırda ikinci oxunuşda sizə müzakirə üçün təqdim edilən qanun layihəsi ilə bağlı komitənin yekun rəyi aşağıdakılardan ibarətdir.

İlk öncə qeyd edim ki, 2023-cü il dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik çağırışları istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müdafiə və təhlükəsizlik çağırışlarının və işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunmuşdur.

2023-cü ildə ölkəmizdə ümumi daxili məhsul real ifadədə 1,1 faiz artmış və nominal olaraq 111,6 milyard manat proqnoza qarşı 123 milyard manat təşkil etmişdir. Qeyri-neft sektorunda 3,7 faizlik artım, neft-qaz sektorunda isə, əsasən, neft hasilatının azalması ilə bağlı mənfi 1,7 faiz azalma qeydə alınmışdır.

Hesabat ilində "Azeri Light" markalı neftin 1 barelinin orta illik ixrac qiyməti 86,1 dollar olmuşdur ki, bu da dövlət büdcəsində nəzərdə tutulmuş qiymətdən 43,5 faiz çoxdur.

Təqdim edilmiş məlumatlara əsaslanaraq qeyd etmək olar ki, büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri aşmamışdır. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 22,5 faiz, dövlət borcunun ümumi daxili məhsula nisbəti isə 21,8 faiz təşkil etmişdir.

2023-cü ildə dövlət büdcəsinin gəlirləri 33 milyard 890,5 milyon manat proqnoza qarşı 35 milyard 236,4 milyon manat təşkil etmişdir. Gəlirlər proqnozla müqayisədə 1 milyard 345,9 milyon manat və ya 4 faiz çox olmuşdur. 2023-cü ildə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə daxilolmalar 16 milyard 126,7 milyon

manat olmuşdur ki, bu da təsdiq edilmiş proqnozdan 1 milyard 139,7 milyon manat çoxdur. Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar isə 6 milyard 337,8 milyon manat olmuşdur ki, bu da təsdiq edilmiş proqnozdan 609,8 milyon manat çoxdur.

2023-cü ilin dövlət büdcəsində təsdiq olunmuş 36 milyard 624,8 milyon manat xərcin 99,5 faizi icra olunmuşdur. Sosial yönümlü xərclər dövlət büdcəsinin xərclərinin 35,8 faizini təşkil etmiş və ya 13 milyard 50 milyon manat həcmində olmuşdur. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5 milyard 881,6 milyon manat vəsaitin yönəldilməsi təmin olunmuşdur.

Qeyd etmək istərdim ki, 2023-cü il dövlət büdcəsinin yerli gəlirləri 764,4 milyon manat məbləğində və ya 8,8 faiz çox, yerli xərcləri isə 95,1 faiz icra olunmuşdur.

Hörmətli həmkarlar, 2023-cü il dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 milyard 734 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1 milyard 121,5 milyon manat və ya ümumi daxili məhsulun cəmi 1 faizi həcmində olmuşdur.

İcmal büdcənin gəlirləri keçən il 43 milyard 60,1 milyon manat proqnoza qarşı 16,2 faiz çox icra edilməklə 50 milyard 49 milyon manat təşkil etmişdir. İcmal büdcənin xərcləri isə 41 milyard 269,8 milyon manat proqnoza qarşı 97,8 faiz icra olunmuşdur. Aparılan təhlillər və müzakirələr 2023-cü il dövlət büdcəsi icrasının dövlət qarşısında duran hədəflərə nail olmaq üçün lazımi maliyyə təminatı yaratdığını deməyə imkan verir.

Hörmətli həmkarlar, yekun olaraq İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesab edir ki, 2023-cü il dövlət büdcəsinin icrası möhtərəm Prezident cənab İlham

Əliyev tərəfindən müəyyən edilən əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin icrası, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadi subyektlərin dəstəklənməsi, müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi üçün lazımi maliyyə təminatı yaratmış və öz müsbət rolunu oynamışdır.

Komitənin qanun layihəsi ilə bağlı rəyi müsbətdir. Bütün bunları nəzərə alaraq sizi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli deputatlar, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası göstərir ki, dövlət büdcəsinin

gəlir və xərclərinin məbləği ildən-ilə sürətlə artmaqda davam edir.

2024-cü ildə dövlət büdcəsinin icrası sənədi və Hesablama Palatasının icraya dair rəyləri o qədər anlaşıqlıdır ki, iqtisadçı olmadan da müəyyən münasibət bildirmək mümkündür.

Büdcə vəsaitlərinin qənaətlə və daha səmərəli istifadə olunması məsələsi artıq uzun müddətdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında da davamlı olaraq səsləndirilməkdədir. Xatırlatmaq istəyirəm ki, Azərbaycan Respublikası Prezidentinin hələ 2019-cu il 4 fevral tarixli fərmanında büdcə xərclərinin 3 funksional təsnifat bölməsi – təhsil, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi bölmələri milli xərc prioritetləri ilə əlaqələndirilmiş, sektor strateji planlarının və bu planlar əsasında ortamüddətli xərclər çərçivəsinin hazırlanması üçün pilot olaraq təyin edilmişdir.

Bildiyimiz kimi, bu il  may ayının 3-də Prezident bu islahatların daha da sürətləndirilməsini nəzərdə tutan daha bir fərman imzalayıb. Fərmanda qeyd olunur ki, növbəti ortamüddətli dövr ərzində dövlət büdcəsi xərclərinin funksional təsnifatının səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət bölmələrinə daxil olan sektorlar ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticə əsaslı büdcə mexanizminə keçid islahatlarına cəlb edilsinlər. Bununla Prezident nəticə əsaslı büdcəyə keçid islahatlarının dönülməz bir proses olduğunu təsdiqləyir. Hesab edirəm ki, Milli Məclis də büdcə layihələrinin və hesabatlarının müzakirəsi işlərini bu islahatların tələblərinə uyğun təkmilləşdirməlidir. Eyni zamanda, hökumətin büdcə

icrası barədə hesabatları da getdikcə bu islahatlara uyğunlaşdırılmalıdır.

Ortamüddətli xərclər çərçivəsindən danışmışkən büdcənin icrasında pilot bölmələr üzrə bunun tətbiqi vəziyyəti, ötən 3 ildə bu sahədə əldə olunan irəliləyişlər, bölmələr üzrə büdcə vəsaitlərinin istifadəsində, səmərəliliyin artırılması sahəsində əldə olunan nailiyyətlər barəsində əhəmiyyət kəsb edəcək qədər məlumat yoxdur. Pilot kimi ayrılmış bölmələr büdcənin çox önəmli bölmələridir. Büdcədən ən çox vəsaitin ayrıldığı bölmələrdən biri təhsildirsə, kənd təsərrüfatı da ən çox subsidiyaların ayrıldığı bölmələrdən biridir. Ətraf mühit və ekologiya məsələləri isə müasir dünyanın başlıca çağırışlarından olan “yaşıl iqtisadiyyat” məsələlərini əhatə edir. Buna görə də həmin bölmələr üzrə büdcə vəsaitlərinin sərfiyyatından əldə olunan nəticələrin hesabatda konkret və dəqiq əks olunması yaxşı olardı.

Söyləmək istədiyim daha bir məsələ. Bu barədə əvvəlki illərdə də danışmışam. Aydındır ki, hökumətin fəaliyyəti dövlət büdcəsinə əsaslanır və il ərzində görülən işlər elə dövlət büdcəsi hesabına maliyyələşir. Hesabata əsasən hökumətin illik fəaliyyəti il ərzində həyata keçirilən fəaliyyətlərin təsvirindən ibarət olur. Büdcənin icrası barədə hesabat isə, artıq vurğuladığım kimi, proqnoz və faktiki məlumatların müqayisəsi əsasında aparılır. Milli Məclis bu hesabatların strukturu və məzmunu ilə bağlı tələbləri də, düşünürəm ki, gələcəkdə müəyyən edə bilər. Apardığım təhlillərdən deyə bilərəm ki, dövlət başçısı tərəfindən imzalanmış inkişaf strategiyalarında qoyulan bəzi hədəflərə yaxınlaşmaq hələ də görünmür. Pul xərclənir, lakin əsaslı nəticələr yoxdur.

Dövlət büdcəsindən elmə ayrılan vəsaitlərin azlığı

məsələsi illərdir ki, müzakirə olunur. Amma bu vəsaitin artırılmasına başlıca maneə elmin maliyyələşdirilməsinin daha səmərəli mexanizmlərinin tapılmasıdır. Büdcənin icrası sənədinin 21-ci səhifəsində Azərbaycan Elm Fonduna ayrılan vəsaitlər haqqında məlumat verilib. Aydındır ki, elm fondu onun sərəncamında olan vəsaiti tam istifadə edə bilmir. İstifadə olunan vəsaitlər barədə məlumatlar da yalnız qrant layihələrinin sayını göstərməkdən başqa bir şey deyildir.

Hesabatda diqqətimi çəkən daha bir məsələ səhmləri dövlətə məxsus şirkətlərin ödədikləri, daha doğrusu, ödəmədikləri dividendlərlə bağlıdır. Bu məsələ Hesablama Palatasının rəyində də xüsusi olaraq vurğulanmışdır. Hesabatdan və Hesablama Palatasının rəyindən məlum olur ki, 2023-cü ildə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin 200 milyon manat, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin 5 milyon manat, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin isə 15 milyon manat dividend ödəmələri nəzərdə tutulsa da, bu şirkətlər, ümumiyyətlə, dividend ödəməyiblər. Amma büdcə hesabatında bunun səbəbləri barədə heç bir məlumat yoxdur. Fikrimcə, bu hallarda ödəməmələrin əsaslı səbəbləri mütləq hesabatda öz əksini tapmalıdır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, millət vəkilləri, media nümayəndələri. Müzakirə etdiyimiz qanun layihəsinə səs verəcəyəm. Biz həm komitədə, həm də birinci oxunuşda çox geniş müzakirə apardıq.

2023-cü ilin dövlət büdcəsinə verilən qiymətin müsbət olduğunu hər birimiz görürük. Eyni zamanda, ötən ilin

büdcəsinə beynəlxalq təşkilatlar da müsbət qiymət verir. Sevindirici hal ondan ibarətdir ki, Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatı "Açıq Büdcə İndeksi–2023" hesabatını açıqlayıb. Bu hesabatda Azərbaycan 125 ölkə arasında 100 mümkün baldan 67 bal toplayaraq 21 pillə yüksəlib və 23-cü yerdə qərarlaşıb. Mən hesab edirəm ki, burada ilk növbədə ictimaiyyətə büdcə məlumatlarının açıq olması əsas arqument kimi götürülür. Bu sahədə parlamentin fəaliyyəti də verilən qiymətə bir təkandır. Nə mənada? Büdcə ilə bağlı həm ictimai dinləmələrin, həm də komitələrdə çox geniş şəkildə müzakirələrin aparılmasına şərait yaradılması, eyni zamanda, Maliyyə Nazirliyinin saytında "Vətəndaşın büdcə bələdçisi" kitabının yerləşdirilməsi, məlumatların ictimaiyyət üçün əlçatan olması bu nailiyyətin əldə edilməsini səciyyələndirir.

Mən uğurlar arzulayıram. Büdcə ilini müsbət qiymətləndirirəm və səs verirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha heç kim müzakirəyə yazılmayıb. Qanun layihəsinin həm birinci oxunuşunda, həm də bugünkü müzakirəsində müəyyən məsələlər qaldırıldı. Bu məsələləri aydınlaşdırmaq üçün, Samir müəllim, mən Sizə söz vermək istəyirəm. Buyurun.

**S.Şərifov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk növbədə mən təşəkkürümü bildirmək istərdim. Hesab edirəm ki, Milli Məclisin profil komitəsində, yəni İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində dövlət büdcəsinin icrası ilə əlaqədar müzakirələrdə xeyli məsələlərə aydınlıq gətirilib. Bunu mən bugünkü iclasda da artıq hiss edirəm, yəni o qədər də çox sual yoxdur. Amma mən bəzi məsələlərə aydınlıq gətirmək istərdim.

2023-cü ilin dövlət büdcəsinin icrası ilə əlaqədar baxılan qanun layihəsi və icra hesabatı ilə bağlı Milli Məclisin plenar iclasında birinci oxunuş zamanı Hesablama Palatasının sədri hörmətli Vüqar müəllim Gülməmmədovun çıxışında səslənən bir sıra məsələlərə və şərhlərə aydınlıq gətirməyi zəruri hesab edirəm.

Söhbət iki məsələ haqqındadır: debitor borcların mövcudluğu və ötən illə müqayisədə cari ildə bunun artması. Yəni ötən il dedikdə 2022-ci ilin nəticələrini, cari il dedikdə isə 2023-cü ili nəzərdə tuturam. İlk növbədə qeyd etmək istərdim ki, debitor borc dedikdə söhbət avans ödənilmiş vəsaitdən gedir. Bu avanslar da dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatların satın aldıqları mal, iş və xidmətlərə görə bağladıqları müqavilələrə əsasən icraçı təşkilatlara, podratçılara qabaqcadan ödənilmiş məbləğlərdir, yəni bu məbləğlər avans şəklində ödənilir. Bu ödənişlər həyata keçirilərkən dövlət xəzinədarlıq orqanları tərəfindən həmin ödənişlər, şübhəsiz ki, nəzərə alınır və müvafiq işlər görüldükcə avans məbləğlər mütənasib şəkildə azaldılır.

Qeyd etmək istərdim ki, 2022-ci ilin sonunda və 2023-cü ilin əvvəlində qabaqcadan ödənişlər üzrə qalıq məbləğ 3 milyard 54 milyon manat təşkil etmişdir. 2023-cü il ərzində büdcə təşkilatları tərəfindən 3 milyard 190 milyon manat məbləğində yenidən avans ödənişləri edilmiş və eyni zamanda, il ərzində 1 milyard 806 milyon manat məbləğində avanslar bağlanılmışdır. Bağlanılmış avansların 1 milyard 226 milyon manatı və yaxud 62 faizi bundan əvvəlki illərdə verilmiş avans məbləğlərini əhatə edir. Yanvarın 1-dək yaranmış  qalıq isə 580 milyon manatı əhatə edir.

Bununla bağlı çatdırmaq istədiyim əsas məqam ondan

ibarətdir ki, 2023-cü ilin sonuna həmin avans məbləğləri 4 milyard 437 milyon manata qədər artmışdır. Bu nəyin hesabına baş verir? Bu avansların əsas məbləğinin təxminən 80 faizi, dəqiq desək, 78,8 faizi, əsasən, güc strukturlarının üzərinə düşür. Bu da başadüşüləndir. Çünki bu təşkilatlar tərəfindən müəyyən avadanlıqların, sursatların alınması, istehsal edilməsi üçün onlar uzunmüddətli müqavilələr bağlamaq məcburiyyətindədirlər. Bu elə bir şey deyil ki, – ifadəmə görə üzr istəyirəm, – dükandan bir mal alıb, pulunu ödəyib gedəsən. Bunlar xeyli müddət, vaxt tələb edir. Belə olan təqdirdə bu vəsaitlər əvvəlcədən ödənilir. Ödənilən vəsaitin müqabilində də əksər hallarda müvafiq avans təminatları və yəni banklar tərəfindən təsdiq olunan avans təminatları və yaxud sığorta təminatları alınır ki, bu müqavilələrin icrası təmin edilsin. Xəzinədarlıq orqanları tərəfindən bu məsələlərə nəzarət gücləndirilib. Bunun nəticəsidir ki, 2022-ci ilin sonuna qeyd etdiyim digər qurumların avansları 1 milyard 100 milyon manat təşkil edirdisə, artıq 2023-cü ilin sonuna bu məbləğ 900 milyon manata düşmüşdür. Əsas avans məbləğini yaradan qurumlar, qeyd etdim ki, güc strukturlarıdır və 2023-cü il ərzində artım, yəni avans məbləğlərinin artımı, əsasən, bunların payına düşmüşdür. Yəqin ki, bu vəziyyət davam edəcək, çünki bu sifarişlər edilir və bundan sonra da ediləcəkdir. Amma bunların üzərində müvafiq nəzarət təmin edilib. Belə olan təqdirdə hesab etmirik ki, bu o qədər böyük bir məsələdir. Amma digər dövlət qurumlarının xüsusi çəkisi, zənnimizcə, ildən-ilə azalacaqdır.

İkinci məsələ. Dövlət büdcəsinin kəsirinin bağlanması üçün dövlət borc kağızlarının emissiyası hesabına cəlb edilmiş vəsaitdən daha çox məbləğdə vəsaitin dövlət

büdcəsindən birbaşa, yaxud dolayı yolla maliyyələşən hüquqi şəxslərə ayrılması. Müvafiq rəqəmlər səsləndirilmişdir: dövlət büdcəsindən 1,8 milyard manat bu təşkilatlara vəsait ayrılıb. Dövlət büdcəsinin kəsiri üçün yalnız 1,4 milyard manat vəsait istifadə olunub. Mən bu məsələyə də aydınlıq gətirmək istərdim.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət büdcəsinin kəsirinin yuxarı həddi 2 milyard 734 milyon manat məbləğində təsdiq edilmişdir. Kəsirin 1 milyard 413 milyon manat hissəsi daxili maliyyə bazarında dövlət istiqrazlarının yerləşdirilməsindən cəlb edilən vəsait hesabına maliyyələşdirilmişdir. Ümumiyyətlə, qeyd etmək istərdim ki, 2023-cü il ərzində Maliyyə Nazirliyi tərəfindən 3 milyard 895 milyon manat məbləğində dövlət istiqrazları maliyyə bazarlarında yerləşdirilmişdir. Qeyd etdiyim kimi, həmin istiqrazların 1 milyard 413 milyon manatı həmin ilin dövlət büdcəsinin kəsirinin örtülməsinə, yerdə qalan hissəsi isə mövcud borcun yenidən maliyyələşdirilməsinə istifadə edilib. Bu, maliyyə bazarlarında standart praktikadır.

Həmin maraq varsa da, dövlət istiqrazlarının 1 milyard 316 milyon manatlıq hissəsi banklar, 270 milyon manatlıq hissəsi sığorta şirkətləri, 52,8 milyon manatlıq hissəsi fiziki şəxslər və 2 milyard 256 milyon manatlıq hissəsi isə digər hüquqi şəxslər tərəfindən alınmışdır. Dövlət büdcəsindən 1 milyard 660 milyon manat məbləğində hissə dövlət büdcəsindən maliyyə vəsaiti alan 5 təşkilat tərəfindən, qalanları isə digər hüquqi şəxslər tərəfindən alınmışdır. Qeyd etməliyəm ki, 1 milyard 660 milyon manat məbləğində istiqrazların 1 milyard 541 milyon manat məbləğində hissəsi iki qurumun üzərinə düşür.

Bunlardan biri Dövlət Sosial Müdafiə Fondudur. Ötən il ərzində 1 milyard 13 milyon manatlıq dövlət istiqrazları almışdır. İkincisi isə İcbari tibbi sığorta fondudur. 528 milyon manat məbləğində dövlət istiqrazları almışdır. Bu iki qurumun üzərinə həmin istiqrazların 93 faiz alışı düşür.

Beləliklə, qeyd etmək istərdim ki, 2023-cü ildə Maliyyə Nazirliyi tərəfindən daxili maliyyə bazarında yerləşdirilmiş 3 milyard  895 milyon manat məbləğində dövlət istiqrazlarının yalnız 1 milyard 660 milyon manat məbləğində hissəsi, hansı isə bir təhlil aparsaq, dövlət büdcəsindən maliyyə vəsaiti alan 5 hüquqi şəxs tərəfindən əldə olunmuş və bunların 93 faizi, yəni 1 milyard 541 milyon manatı  iki qurumun – Dövlət Sosial Müdafiə Fondu və İcbari tibbi sığorta fondunun üzərinə düşür. Hər iki publik hüquqi şəxs mahiyyət etibarı ilə yığım və sığorta funksiyasını həyata keçirən qurumlardır, müvafiq icra hakimiyyəti orqanı tərəfindən, yəni Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş investisiya qaydalarına və uzunmüddətli investisiya strategiyalarına uyğun sərəncamlarında olan sərbəst vəsaitləri ilə daxili maliyyə bazarında ticarət əməliyyatları həyata keçirirlər. Həmin sənədlərə uyğun olaraq, qeyd olunan publik hüquqi şəxslər tərəfindən dövlət istiqrazlarının əldə edilməsi üçün məhdudiyyətlər yoxdur. Mən bir daha qeyd etmək istərdim ki, bu zaman hər bir qurumun sərəncamında olan sərbəst vəsaitdən istifadə edilməsinə hüquqları var. Belə olan təqdirdə hesab etmirik ki, bu vəsaitin həmin qurumlara ayrılması bilavasitə həmin qurumlar tərəfindən müvafiq investisiya və siyasətin həyata keçirilməsi ilə bağlanmalıdır.

Bildiyiniz kimi, hər il dövlət büdcəsindən müvafiq qanunvericilik əsasında İcbari tibbi sığorta fonduna vəsaitlər

ödənilir. Bu, dövlətin hər bir Azərbaycan vətəndaşının icbari tibbi sığortası üzrə öhdəliyidir. Hər bir vətəndaş Azərbaycan dövləti tərəfindən tibbi baxımdan sığortalanır və sığorta ödənişi hər il ödənilir. Misal üçün, 2024-cü il üçün yenidən baxılma sənədlərində İcbari tibbi sığorta fonduna dövlət büdcəsindən nəzərdə tutulan ödənişin məbləği azaldılır. Bu nəyin hesabına baş verir? Həmin qanunvericiliklə dövlətin öhdəlikləri məhz inflyasiya səviyyəsinə uyğun həyata keçirilməkdədir. Belə olan təqdirdə ilin sonuna artıq faktiki olan inflyasiya məbləği müəyyən edildikdən sonra bizim tərəfimizdən dövlət büdcəsi noyabr ayında qəbul edilmişdir və müvafiq korrektələr edilmişdir. Nəticə etibarı ilə 8 milyon manat İcbari tibbi sığorta fonduna dövlət büdcəsindən ayırma azaldılmışdır.

Dövlət Sosial Müdafiə Fondu ilə münasibətlərimizə gəldikdə isə, bildiyiniz kimi, dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə müvafiq transfertlər edilir. Bu transfertlər, əsasən, həmin fondun büdcə kəsirinin örtülməsi üçün edilir. Yəni fondun xərcləri, əsasən, fondun gəlirləri, sosial yığımlar hesabına bağlanılır. Yerdə qalan hissəsi, yəni gəlirləri təmin etməyən xərclərin hissəsi isə dövlət büdcəsindən transfert hesabına bağlanılır. Müvafiq olaraq bu transferti də biz dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna köçürürük.

Cari ilin dövlət büdcəsinə yenidən baxılması məsələsinə də toxunmaq istərdim, çünki bəzi deputatlar bununla bağlı suallar səsləndirdilər. Sosial müdafiə xərcləri, sosial təminat xərcləri bir qədər azaldılır. Bəli, bu istiqamət üzrə dövlət büdcəsindən 160 milyon manat məbləğində xərclər azaldılır. Həmin xərclərin 160 milyon manatlıq hissəsi Dövlət Sosial Müdafiə Fonduna transfertin

edilməsi üçün nəzərdə tutulmuşdur. Lakin hörmətli komitə sədri Musa müəllimin verdiyi məlumata görə, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üzrə gəlirləri 190 milyon manat artır. Bunlar xərcləri 30 milyon manat artırmaq istəyirlər. Belə olan təqdirdə əlavə 160 milyon manat vəsaitin dövlət büdcəsindən fonda ödənilməsi üçün zərurət yoxdur. Belə olan təqdirdə bu xərclər azaldılmaqla dövlət büdcəsində digər istiqamətlərə yönəldilir.

Sonda bir daha qeyd etmək istərdim ki, bu təşkilatların – Dövlət Sosial Müdafiə Fondunun və İcbari tibbi sığorta fondunun əsas fəaliyyət istiqaməti vəsaitləri qəbul edib onların yerləşdirilməsindən əlavə gəlir əldə etməkdir. Bununla yanaşı, onu da qeyd etmək istərdim ki, dövlət büdcəsi vasitəsi ilə publik hüquqi şəxslərə ayrılan vəsaiti təyinatı üzrə istifadə etmədən, yaxud istifadəsini ləngitməklə həmin vəsaitlərin dövlət istiqrazlarına yerləşdirilməsi praktikası ilə müvafiq nəzarət tədbirləri həyata keçirməklə mübarizə aparılacaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Samir müəllim, ətraflı məlumatınıza görə sağ olun. İlk öncə qanun layihəsini maddələr üzrə səsə qoyacağıq. Hörmətli həmkarlar, qanun layihəsi 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
Mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.
Mən indi qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İclasımızda iştirak edən hökumət üzvlərinə minnətdarlığımı bildirirəm. Sağ olun.

Hörmətli həmkarlar, 5 dəqiqədən sonra bizim fasilə vaxtımızdır. Fasiləsiz işləmək təklifi var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İşləyək.

Hörmətli həmkarlar, 5-ci məsələyə keçirik. "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə üçüncü oxunuşda təqdim edilir. Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Musa müəllimə söz verirəm. Musa Quliyev. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci və ikinci oxunuşlarda plenar iclasda ətraflı müzakirə olunubdur, ətraflı məlumat verilibdir. Layihənin mətnində dəyişiklik yoxdur. Xahiş edirəm, olduğu kimi səsə qoyasınız və dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| --- | --- |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 99
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 8 məsələmiz qalır. Bu məsələlərin hamısı da birinci oxunuşda olan qanun layihələridir. İndi biz 6-cı məsələyə keçirik. Bu məsələ "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bu gün müzakirə etdiyimiz qanun layihəsi Əmək və sosial siyasət komitəsində müzakirə olunmuşdur. Qanun layihəsi bütün komitə üzvləri tərəfindən dəstəklənmişdir.

Qanun layihəsi, bütövlükdə, məşğulluq sferasında həm səmərəliliyi, həm də vəsaitlərin daha şəffaf və səmərəli şəkildə bölüşdürülməsini özündə ehtiva edir. Bu baxımdan qanun layihəsində "Məşğulluq haqqında" Qanunun 2 maddəsində kifayət qədər vacib, eyni zamanda, səmərəliliyə xidmət edən dəyişikliklərin edilməsi təklif edilir.

Qeyd etmək istərdim ki, "Məşğulluq haqqında" Qanun 2018-ci il iyunun 29-da qəbul edilmişdir. Ötən müddətdə, yəni son 6 il ərzində qanuna 56 adda dəyişikliyi ehtiva edən 14 qanun layihəsi Milli Məclisdə müzakirə edilib. Əsas məqsəd də məhz qanunun daha çevik və daha səmərəli şəkildə icrasına nail olmaqdan ibarətdir.

Əvvəla, təklif edilən dəyişikliklərlə həm də əsas anlayışlara yeni bir anlayış gətirilir. Bu, məqsədli proqramlar anlayışıdır. Belə ki, təklif edilən qanun layihəsinə əsasən məqsədli proqramlar sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlarımızın məşğulluğunun təmin edilməsi üçün həyata keçiriləcək proqramlardır. Bunlar məqsədli şəkildə həyata keçirilən, eyni zamanda, İşsizlikdən sığorta fondunun vəsaiti hesabına maliyyələşdirilən və sosial təminatın gücləndirilməsinə xidmət edən proqramlardır.

29-cu maddədə təklif edilən dəyişikliklər kvotadan əlavə iş yerlərinin yaradılması ilə bağlıdır. Hər bir qurumda qanunvericiliyə əsasən xüsusi kvotalar var. Artıq qanunvericiliklə yeni bir yanaşma tətbiq olunacaq və bu yanaşmanın sosial mahiyyəti ondan ibarətdir ki, kvotadan əlavə yaradılan iş yerləri dövlət tərəfindən maliyyələşdiriləcək. Yəni praktik olaraq qanun layihəsinin fundamental sosial üstünlüyü ondan ibarətdir ki, dövlət özəl sektorda iş yerlərinin yaradılmasını maliyyələşdirəcək və məşğulluğun təmin edilməsinə birbaşa təsir göstərmək, öz maliyyə alətlərindən istifadə etməklə dəstək olmaq imkanına malik olacaq.

Təklif edilən qanun layihəsinə əsasən hər bir qurum üzrə kvotanın sayı 15 nəfərdən çox olmamaqla müəyyənləşdiriləcək. Bu zaman əmək bazarındakı mövcud dəyişikliklərə uyğun olaraq, tələb olunan iş yerləri üzrə kvotaların müəyyənləşdirilməsi və dövlət büdcəsi hesabına maliyyələşdirilməsi həyata keçiriləcək.

Kvotadan kənar iş yerlərinin yaradılması ilə bağlı qaydalar qanun layihəsində öz əksini tapıb. Bu qaydalar şəffaf olmaqla yanaşı, həm də imkan verəcək ki, özəl sektor aktiv şəkildə prosesdə iştirak edə bilsin. O

baxımdan qanun layihəsi dövlət–özəl tərəfdaşlığını dəstəkləyən bir qanun layihəsidir. Təbii ki, mən detalları ilə bağlı məlumat verib vaxtınızı almaq istəmirəm. Hörmətli millət vəkillərimiz detallarla tanış olmaq imkanına malik olublar.

Digər ikinci dəyişiklik 29-cu maddə ilə bağlıdır. Bildiyiniz kimi, mövcud versiyada qanun peşə məktəblərində təhsil alan vətəndaşlarımız üçün minimum əməkhaqqı məbləğində qonorarın verilməsini özündə ehtiva edir. Söhbət təqaüdün verilməsindən gedir. Amma bu, bəzi hallarda sui-istifadə hallarına gətirib çıxarırdı. Bəzi hallarda peşə təhsilinə ehtiyacı olmayan vətəndaşlarımız belə məhz təqaüdə görə peşə təhsilindən istifadə etməyə üstünlük verirdilər. Təklif olunur ki, peşə təhsili alan vətəndaşlarımıza minimum əməkhaqqının 50 faizi həcmində təqaüd ödənilsin. Bu, bir tərəfdən, sui-istifadə hallarının qarşısının alınmasına, digər tərəfdən, peşə təhsilinin keyfiyyətinin artmasına, peşə təhsili ilə əmək bazarı arasında əlaqənin daha səmərəli şəkildə formalaşmasına imkan yaradacaq. Qeyd etmək istərdim ki, peşə təhsili üçün müəyyənləşdirilmiş təqaüd minimum əməkhaqqı ilə bağlı olduğuna görə gələcəkdə minimum əməkhaqqının artması peşə təhsili alan vətəndaşlarımızın təqaüdünün artmasına gətirib çıxaracaq.

Qeyd etdiyimiz kimi, qanun layihəsi Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə edilib və hər bir komitə üzvü tərəfindən dəstəklənib. Ona görə mən hörmətli millət vəkillərimizdən də xahiş edərdim ki, qanun layihəsini dəstəkləsinlər.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz indi müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Məşğulluğun artırılması üçün edilən dəyişikliklər yaxşıdır. Zəhməti keçən hər kəsə təşəkkür edirəm. Bununla bərabər, dəyişikliklərdən irəli gələn müddəaların həyata keçirilməsi üçün infrastruktur zəifdir və bir çox rayon və şəhərlər bu dəyişikliklərdən yararlana bilməyəcək. Bu dəyişikliklərin səmərəsini görmək üçün yüksək ixtisaslı peşə məktəblərinə, peşə tədrisinə və yeni peşə ixtisaslarına ehtiyac var. Araşdırmanın nəticəsinə görə, ölkədə mövcud olan peşə məktəblərinin yarıdan çoxu çox bərbad vəziyyətdədir. İnfrastrukturu yoxdur və təchizatı da sıfırdır.

Faktlarla danışım. Deputatı olduğum İmişli şəhərində peşə məktəbi uçub-dağılıb. Mən orada görüş keçirmişəm və bunu sosial media hesablarımda da paylaşmışam. Səbəb budur ki, peşə məktəblərinin təmirinə, təchizatına cüzi vəsait ayrılır. Mən bunu başa düşmürəm və qəbul da edə bilmirəm. Peşə təhsili işsizliyin aradan qaldırılması, kadrlara olan ehtiyacın təmin edilməsi üçün ən vacib amildir. Ayrılan vəsaitlərin böyük bir hissəsi, əsasən, büdcəmizdə gələcək üçün sərmayə sayıla bilməz. Onlar, sadəcə, bir ilə xərclənib gedir və sonrakı illər üçün səmərə yaratmır. Səmərə yaradan sahələrə isə böyük qısqanclıqla vəsaitlər ayrılır. Təhsil və səhiyyə o sahələrdir ki, cəmiyyətin inkişafı və rifahı onların üzərində mövcudluğunu saxlayır.

Xahiş edirəm ki, mövcud peşə məktəblərinin təmiri, təchizatı, yeni peşə ixtisaslarının yaradılması, müəllimlərin tədris və peşə hazırlığının həyata keçirilməsi, yeni peşə məktəblərinin tikintisi üçün normal, çata biləcək qədər büdcə vəsaitləri hər zaman nəzərdə tutulsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bəri başdan deyim ki, təqdim olunan qanun layihəsinin 29-cu maddəsində verilən təklifi mütərəqqi bir dəyişiklik hesab edirəm. Çünki bu, sui-istifadə hallarına yol verilməməsi üçün, həqiqətən də, vacibdir. Hər kəsin də ancaq zərurət olanda peşə təhsilinə yönəlməsinə stimullaşdırıcı haldır. Amma hesab edirəm ki, digər maddələr daha çox problemlərdən yayınmaq üçün dolayı yol seçilməsi məqsədini daşıyır.

Nəyə görə bunu söyləyirəm? Bildiyiniz kimi, Dövlət Sosial Müdafiə Fondunun büdcəsində 30 milyon manat gəlir, müəyyən daxilolmalar nəzərdə tutulur. Burada əsaslandırmada göstərilir ki, bu, əməkhaqqı artımları, habelə aparılan şəffaflaşdırma tədbirləri nəticəsində əldə edilir. Halbuki biz sosial müdafiə sisteminə həm də investisiyalar qoymaq, iqtisadi fəaliyyətlə məşğul olmaq imkanı tanımışıq. Vəsaitlərin ora yönəlməsi, o məqsədli proqramların necə həyata keçirilməsi ilə bağlı bilgimiz yoxdur. Bu büdcə layihəsində də bununla bağlı hansı isə məlumat verilmədi və bu, olduqca önəmlidir. Çünki bu gün bunun ardınca artıq yeni bir model təklif olunur.

"Məşğulluq haqqında" Qanunda dəyişikliklərlə məqsədli proqramlar hazırlama səlahiyyəti verilir. Məqsədli proqramlar da mahiyyətcə doğru tərtib olunmur. Çünki diqqət edirsinizsə, Hesablama Palatasının rəyində də qeyd olunmuşdu ki, əksər məqsədli proqramlar nəticə olaraq özünü doğrultmur və sonradan sanki unudulur, bununla bağlı hansı isə məlumatlar da rəsmi sənədlərdə yer almır. Baxın, məqsədli proqram nə deməkdir? Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən. Sosial müdafiəyə ehtiyacı olanla bağlı söhbət getməlidir.

İşə düzəlmək kimə asandır? Hamı çətinlik çəkir. Yəni vətəndaş çətinlik çəkəndə məşğulluq üzrə xüsusi bir infrastruktur var, ora müraciət edir və həmin qurum onunla məşğul olur. Ona görə də bunu bir məqsədli proqramda xüsusən xatırlatmağa nə ehtiyac var? İkinci tərəfdən, özəl sektorun inkişafına kömək edə bilmədiyimiz halda, biz yenə dövlətin iş yeri açmaq məsələsinə yönəlirik. İş yeri açanda da orta əməkhaqqından yüksək səviyyədə iş yeri nəzərdə tutulmur. Kvotalarda da dövlət müəyyən edir ki, 15-dən yuxarı olmaz. Biz niyə bu yükü dövlətin üzərinə qoymalıyıq?

Mən başa düşürəm, biz "İşsizlikdən sığorta haqqında" Qanunda fondun büdcəsini təxminən 184 milyon manat nəzərdə tutmuşuq və bunun əhəmiyyətli hissəsi hər il geri qaytarılır, yəni istifadə olunmamış vəsait kimi qalır. Bu dəfə də 53 milyon manat istifadə olunmamış vəsait kimi nəzərdə tutulur. Görünür, bu 53 milyon manatın hansı isə formada məqsədli proqramlara yönəldilməsi düşünülür. Amma bunu düşünmək yerinə, məncə, bu vəsaiti sahibkarlığın inkişafına yönəltmək daha faydalı olar. Çünki iş yerinin ən yaxşı, ən dolğun və vətəndaş üçün faydalı olan hissəsini sahibkar yarada bilər, özəl sektor yarada bilər. Bunu dəfələrlə qeyd etdik. "DOST" Mərkəzi, başqa vasitələrlə yaradılan iş yerlərinin səmərəli nəticəsi ortaya hələ tam şəkildə qoyulmur. Yəni minimum əməkhaqqı ilə hansı isə bir vətəndaşın xoşbəxt olması mümkün deyil. Ona görə də biz bu sahədə dolayı yollara getmək əvəzinə, yaxşı olar ki, özəl sektorun daha çox imkanlarını genişləndirək.

Narkomaniyadan müalicə ilə bağlı bir qurtuluş təşkilatı var. Məhdud məsuliyyətli cəmiyyət. Ora dəvət olunmuşdum. Bu insanlar – təqribən 30 nəfər keçmiş narkotik

aludəçisi özəl sektor olaraq orada iş yeri tapıblar və yenidən valideynlərinin, yaxınlarının ödədiyi vəsait hesabına bu bəlaya düçar olmuş insanların sağalması ilə məşğul olurlar. Çünki burada psixoloji faktor da var. Bu yolu keçmiş insanlar sonradan bu bəladan qurtulurlar, amma başqalarına müalicə üçün kömək edirlər. 30 nəfərə iş yeri açıblar. Bu iş yeri açan sahibkarlara dəstək vermək lazımdır. Vəssalam. Onlar özləri öz işlərini biləcəklər. Ona görə də mənim bu cür məqsədli proqramlar vasitəsi ilə nəyin isə yaxşıya doğru dəyişəcəyinə ümidim yoxdur. Hesab edirəm ki, biz daha çox özəl sektora dəstək proqramları üzərində düşünməliyik, bu vəsaitlər ora yönəlməlidir. Əgər o cür təşəbbüslər varsa, onların dəstəklənməsi vasitəsi ilə bu işi daha dolğun həyata keçirə bilərik. Diqqətinizə görə təşəkkür edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sağ olun. Mən sizdən çox xahiş edirəm, "səsə qoymaq" praktikasını bir qədər azaldın. Çünki "səsə qoyaq", "təkrar olunur" deyilir, ancaq heç kim fikirləşmir ki, bu, təkrar olunanda, deməli, bundan əvvəlki qanun layihəsi, bu dürüstləşmə təsdiq olunur. Çox şey demək istəmirəm, media da indi oradadır. Cəmi 5 nəfər çıxış etdi. Fikirləşin, sonra belə təkliflər verin. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar və media nümayəndələri. Müzakirəyə çıxarılan qanun layihəsi ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm. İlk öncə qeyd edim ki, son illərdə əmək, məşğulluq, sosial siyasət sahəsində çox ciddi islahatlar həyata keçirilir və biz bu islahatların nəticəsini təminatların həcminin yüksəlməsində, elektronlaşmanın, rəqəmsallaşmanın, bundan irəli gələrək şəffaflaşmanın yüksəl-

məsində, həmçinin sosial xidmətlərə əlçatanlığın artmasında aydın görürük.

Qeyd olunduğu kimi, bu qanun layihəsi sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğu ilə bağlı iki yeni mexanizmi özündə əks etdirir. Xüsusilə bu mexanizmlərin maliyyə təminatı dövlət büdcəsi vəsaiti hesabına deyil, məhz İşsizlikdən sığorta fondunun vəsaiti hesabına həyata keçiriləcəkdir ki, bu da çox müsbət haldır. İşsizlikdən sığorta vəsaitləri məhz işsizliyin aradan qaldırılmasına, məşğulluğa xidmət edəcəkdir. Bu qanunun özəlliyi odur ki, sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunu təmin etmək üçün iş yerlərinə, özəl müəssisə və təşkilatlara dəstək veriləcəkdir. Bu iş yerləri ilk növbədə həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin edirsə, onların sosial müdafiəsini gücləndirirsə, digər tərəfdən, iş yerlərinə məqsədli dəstəyin göstərilməsi yolu ilə həmin müəssisələrin də fəaliyyətinin genişləndirilməsinə, yeni maliyyə təminatı əldə etməsinə imkan yaradır.

Məqsədli proqramlar üzrə müsabiqənin keçirilməsi ilə işlə təminat isə bu iş yerlərinin formal olmamasına, iqtisadi dəyərin yaradılmasına, iş yerlərinin ehtiyaclarını qarşılayacaq işçilərin cəlbinə, eləcə də müəssisələrin dəstək almasına xidmət edəcəkdir. Mən hesab edirəm ki, İşsizlikdən sığorta fondunun vəsaitlərinin bu istiqamətdə xərclənməsi çox vacib və doğru yanaşmadır. Nəzərə alsaq ki, bugünkü düzəlişlərlə İşsizlikdən sığorta fondunun büdcəsi 4,7 milyon manat artırılaraq 185 milyon manata çatdırılır və bu da aktiv məşğulluq üçün ciddi maliyyə mənbəyi yaradır. Mən istərdim ki, biz bu vəsaitlərin istifadə imkanlarını daha da şaxələndirək, xüsusilə az

maaşla, minimum əməkhaqqı ilə işləyən və ailə öhdəliyi yüksək olan şəxslərin, məsələn, tənha anaların əməkhaqqına İşsizlikdən sığorta fondunun vəsaiti hesabına müəyyən əlavələrin verilməsi məsələsini təhlil edək. Bununla da biz daha dayanıqlı iş yerlərinin formalaşmasına töhfə vermiş olarıq.

Qeyd etmək istədiyim ikinci məsələ Qarabağa dair elmi araşdırmalar mərkəzinin yaradılması ilə bağlıdır. Hörmətli xanım sədr, büdcə layihəsinin müzakirəsinə yazılmadığımdan bu məsələni burada qeyd etmək istərdim. Bu mərkəz yalnız Qarabağın tarixini deyil, coğrafi, təbii ehtiyatlar, musiqi, mədəniyyət, bioloji, antropoloji araşdırmalar və sair sahələrini də əhatə edə bilər. Hesab edirəm ki, Şuşada, yaxud Xankəndidə belə bir mərkəzin yaradılmasının yaxın zamanlarda reallaşdırılmasının əsl vaxtıdır. Bu, Qarabağın resurslarından istifadənin keyfiyyətinin təminatına, erməni yalanlarının ifşasına, Azərbaycan, Qarabağ həqiqətlərinin elmi nəzərdən dünya ictimaiyyətinə çatdırılmasına, eyni zamanda, həmin bölgədə elmi mühitin möhkəmlənməsinə töhfə verər. Bu elmi-tədqiqat mərkəzi həm də Qarabağ Universiteti ilə simbioz, tandem şəkildə işləyə və qarşılıqlı fayda verə bilər. Həmçinin tələbələr buradakı tədqiqatlara cəlb oluna bilərlər və praktiki olaraq elmi tədqiqatların işində iştirak edə bilərlər. Sonda bir daha qeyd etmək istərdim ki, "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişiklikləri dəstəkləyirəm və səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. O dediyiniz təklifi büdcə layihəsi müzakirə olunanda demək lazım idi. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar. İşsizlikdən sığorta fondunun büdcəsində məqsədli proqramların həyata keçirilməsi mexanizminin mövcudluğu fonunda həmin anlayışın məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edən sahəvi qanunda daha ətraflı əhatələnməsi, əlbəttə ki, müsbət haldır. Məlumdur ki, "Məşğulluq haqqında" Qanunun 26-cı maddəsinə əsasən xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədi ilə kvotadan əlavə iş yerləri, sosial müəssisələr yaradıla və məqsədli proqramlar həyata keçirilə bilər. Həmin məqsədli proqramlar üzrə vəsaitlər İşsizlikdən sığorta fondu tərəfindən ödənilir və cari dəyişikliklə bu prosesdə maraqlı olan işəgötürənlərin müsabiqədə iştirak şərtləri müəyyən edilir.

Sadəcə, açıq qalan məqamlar var. Xüsusi proqramlara cəlb edilmiş və dövlət tərəfindən ödənilən əlavə iş yerləri tədricən sosial məzmununu itirərək zəruri ştatlara çevrilərsə, yəni şirkət özü gələcəkdə bu əməkdaşa ehtiyac duyarsa, həmin şəxsin proqramı yarımçıq dayandırması mümkündürmü? Hesab edirəm ki, bu məsələ mütləq qaydada həllini tapmalıdır. Çünki ölkədə ümumi tendensiyaya uyğun olaraq, şirkətlər də, özəl sektor da inkişaf edir, kadr potensialı genişlənir və qanunla da müəssisədə mövcud olan daimi vakansiyalar əlavə iş yerləri hesab edilmir.

İkincisi, peşə hazırlığına cəlb edilmiş şəxslərin təqaüdlərinin miqdarında dəyişiklik məsələsi. Əminəm ki, hansı isə statistik göstəricilərə əsaslanmadan bu layihə gündəmə gəlməzdi. Sadəcə, işlək bir prosesin hansı isə

sui-istifadə halına qurban verilməsi, hesab edirəm ki, doğru deyil. Mövcud layihədə düyün nöqtəsi kimi işlə təmin edilmə imkanları olanların təqaüdlərdən sui-istifadə etməsi ehtimalları çıxış edir və bununla da ehtiyacı olanların kənarda qalması qabardılır. Əgər qeyri-real olan, sui-istifadə xarakteri daşıyan hansısa fakt varsa, təbii ki, aidiyyəti tədbirlər görülməlidir, hətta bu prosesdə inzibati məsuliyyət tədbirlərinin mümkünlüyünə belə baxıla bilər. Sadəcə, burada aydın hüquqi kateqoriya olmalıdır ki, "işlə təmin edilmə imkanları olanlar" kateqoriyası necə müəyyən edilir? Bura kimlər daxildir? Bu məsələ də, hesab edirəm ki, aydın deyil.

Ən sonda isə, ümumilikdə, müəyyən meyarlara aydınlıq gətirilməsinə ehtiyac var. Məsələn, kvota niyə məhz 15 nəfərdən çox olmamalıdır? 26-cı maddədəki 2 illik müddət, yaxud 29-cu maddədəki 50 faizlik meyar. Buna, təbii ki, xüsusi bir etiraz üçün əsas görmürəm, amma meyarlar özlüyündə aydın deyil və hansı əsaslarla müəyyənləşib? Hesab edirəm ki, buna aydınlıq gətirilsə, yaxşı olar.

Ümumilikdə isə, təbii ki, layihəni dəstəkləyirəm, konsepsiya ümumi rifaha xidmət edir və həmkarlarımızı da dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən düşünürəm ki, bu gün müzakirəmizə təqdim olunan qanun layihəsi mahiyyət etibarı ilə mütərəqqi layihədir. Müsbət yanaşmaq lazımdır, çünki söhbət Azərbaycan vətəndaşının sosial rifahının təminatından gedir. Burada fərqli fikirlər ola bilər. Əlbəttə ki, biz buna hörmətlə yanaşırıq. Amma mənim düşüncəmə görə, dövlət burada çalışır ki, bu gün daha çox sosial təminata ehtiyacı olan insanlara öz büdcəsindən vəsait ayıraraq və

işəgötürənləri də müəyyən mənada stimullaşdıraraq yeni iş yerləri açsın. Sənədin mahiyyəti qısa olaraq bundan ibarətdir və bunu ancaq alqışlamaq lazımdır. Ancaq icra prosesində hansı çətinliklərin üzə çıxması və bu kvotanın müəyyənləşdirilməsində müəyyən fərqli rəqəmlərin olub-olmaması ilə bağlı məqamların necə həll olunacağı başqa məsələdir. Mənə belə gəlir ki, biz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, – indi qanunda adı getmir, – müvafiq icra hakimiyyəti orqanına müəyyən vaxt ayırmalıyıq. Burada müəyyən parametrlər var. Müqavilə 3 ilə qədər bağlanır və sair. Ondan sonra nəticələr müzakirə olunmalıdır, monitorinq aparılmalıdır və biz nəyə nail olmuşuq, onu qiymətləndirməliyik. Amma bütövlükdə bu qanunun fəlsəfəsi çox müsbətdir.

Hörmətli xanım sədr, məşğulluqla bağlı söhbət açılmışkən bir məsələyə də toxunmaq istərdim. Biz bilirik ki, Dövlət Məşğulluq Agentliyi maksimum dərəcədə insanların məşğulluqlarının həllində kömək etməyə çalışır. Mənim bu agentliklə  çox yaxşı əməkdaşlıq imkanlarım var. Demək olar ki, hər ay keçirilən görüşlərdə Dövlət Məşğulluq Agentliyinin, yaxud da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları iştirak edirlər və insanların problemlərinin həllinə kömək etməyə çalışırlar. Amma statistika bir az fərqli nəticələr göstərir. Bizim müraciətlər əsasında agentliyə işlə bağlı göndərilən müraciətlərin təminat səviyyəsi, yaxud da statistikası çox yuxarı deyil. Mən öz təcrübəmdən deyə bilərəm ki, bu, 10–15 faiz civarındadır. Mən bunun səbəblərini araşdırdım. Məlum oldu ki, bu səbəblərdən biri işə müraciət edən şəxslərin müəyyən göstəricilərinin, yaxud da onların tələblərinin, maaşla bağlı istəklərinin uyğun gəlməməsidirsə, digər səbəblər vakansiya yerlərini təqdim edən

idarə və müəssisələrin verdiyi məlumatların qeyri-dəqiq olması ilə bağlıdır. Məsələn, müəyyən idarə və müəssisələrdə 10-15 vakansiya var. Dövlət Məşğulluq Agentliyinə müraciət olunur, agentlik də müvafiq qaydada həmin şəxsi idarələrə göndərir. Bəlli olur ki, ümumiyyətlə, bu vakansiya ilə bağlı verilən məlumat doğru deyil, yalandır, belə bir vakansiya yoxdur. Yaxud da bütün parametrləri uyğun gələn bəzi vətəndaşları süründürməçiliklə qarşı-qarşıya qoyurlar. Vətəndaş zəng vurur, agentliyin göndərişi var, idarə isə qəbul etmir. Bəlli olur ki, həmin o müəssisə, idarə bununla bağlı öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir.

Təklif nədən ibarətdir? Burada əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar müəllim iştirak edir. Mənə belə gəlir ki, bu məsələ araşdırılmalıdır. Yalan, əsaslandırılmamış məlumat verən, yaxud vakansiyalarla bağlı götürdüyü öhdəliyi yerinə yetirməyən müəssisələr və idarələrlə bağlı qanunvericilik çərçivəsində müəyyən addımlar atılmalıdır. Ən azı bunlar cəlb olunmalıdır. Axı, insanlara ümid verilir, onlar işlə bağlı təklif alıb gəlirlər və bu müəssisələr insanları işə götürmürlər. Ona görə də fürsətdən istifadə edərək bu məsələni qaldırmaq istərdim.

Ümumiyyətlə, mən düşünürəm ki, qanun layihəsi kifayət qədər müsbətdir və biz bunu dəstəkləməliyik. Əlbəttə, biz gələcək icra prosesində nəticələri qiymətləndirərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azay müəllim. Mən düşünürəm ki, dediyiniz kimi, Anar müəllim buradadır və əlbəttə, Siz lazım olan təkliflərdən də faydalana bilərsiniz. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Hörmətli xanım sədr, hörmətli həmkarlarım. Məşğulluqla bağlı atılan hər bir addım təqdirə-

layiqdir. Çünki məşğulluğun təmin olunması dövlətin ən prioritet sahələrindən biridir. Son 20 il ərzində işsizlik 50 faizdən 5 faizə qədər aradan qaldırılıb, qeyd etdiyimiz kimi, bu növbəti qanunun da işsizlik, onun qarşısının alınması, məşğulluğun təmin olunması istiqamətində öz müsbət nəticəsini verəcəyinə heç bir şübhə yoxdur.

Mən hesab edirəm ki, qanun layihəsindəki bir çox maddələr bu prosesləri qanun çərçivəsində daha yaxşı tənzimləyəcək. Onlardan bir neçəsini sadalamaq istərdim: işəgötürənlərin müsabiqədə iştirakı, onların müsabiqədə iştirakına qoyulan vergi öhdəliyi... Bax, bu özü müsbət haldır ki, işəgötürənlərin vergi öhdəliklərinin vaxtında yerinə yetirilməsi şərtlərdən biridir.

Digər tərəfdən, son 1 il ərzində işçilərinin sayını azaltmayan və eləcə də ixtisar aparmayan işəgötürənlər müraciət eləyər. Mən hesab edirəm ki, qanunda bu kimi maddələrin, qüvvətləndirici halların olması daha təqdirəlayiqdir. İstərdim ki, işəgötürənlərin şərtləri daxilində başqa bir şərt də olsun. Mən belə düşünürəm ki, regionlardan müraciət edənlərə daha çox üstünlük verilsin. Regionlarda məşğulluğun təmin olunmasını prioritet hesab etmək daha düzgün olar.

Həmçinin işəgötürülənlər arasında yeniyetmələrə, daha çox orta məktəbi bitirib sonradan işsiz qalanlara, əvvəl qızlara, sonra isə oğlanlara üstünlük vermək lazımdır. Çünki onlar ali məktəblərə, yaxud da hər hansı texniki peşə məktəblərinə qəbul ola bilmirlərsə, onların məşğulluğunun təmin olunması ən birinci istiqamətdir. Mən belə düşünürəm. Düzdür, sosial qayğıya ehtiyacı olan ailələr, digər kateqoriyalar var. Bunlarla yanaşı, həmin kateqoriyalara da üstünlük verilməsini daha məqbul hesab edirəm. Qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. 7-ci məsələmiz Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində qeyd edilir ki, cəmiyyətin əsas özəyi olan ailə dövlətin xüsusi himayəsindədir. Həmin sənədin 34-cü maddəsinə görə, 18 yaşına çatmış hər bir şəxsin nikah hüququ, ailə hüququ vardır. Vətəndaşların ailə hüquqları Azərbaycan Respublikasının Ailə Məcəlləsi və digər normativ hüquqi aktlar əsasında müvafiq dövlət orqanları tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə edilir. Məlum olduğu

kimi, Prezident İlham Əliyev tərəfindən ailə institutunun möhkəmləndirilməsi, onun sosial rifahının yaxşılaşdırılması, ailə üzvlərinin hüquqlarının müdafiəsi sahəsində çox mühüm qanunlar qəbul edilmiş, dövlət proqramları və digər normativ hüquqi aktlar təsdiq olunmuşdur.

Qeyd etməliyəm ki, ailələrimizdə sağlam mühitin təşkili və bütövlüyü, hər bir şəxsin hüququnun qorunması üçün qanunvericilik bazamız davamlı olaraq təkmilləşdirilir. Ötən 24 ildə Ailə Məcəlləsinə çox mühüm dəyişikliklər edilmişdir. Nikah yaşının tənzimlənməsi və nikaha məcbur etməklə bağlı himayədar ailə institutunun hüquqi bazasının yaradılması, Ailə və Cinayət məcəllələrinə edilən əlavə və dəyişikliklər, həmçinin nikahdan öncə tərəflərin tibbi müayinədən keçirilməsinin məcburi olması, gender bərabərliyi təminatları, məişət zorakılığının qarşısının alınması və uşaqların zərərli informasiyadan qorunmasına dair qanunların qəbul edilməsi ailə institutunun müdafiəsi sahəsində çox mühüm uğurlar hesab olunur.

Hörmətli xanım sədr və Məclis iştirakçıları. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı bildirmək istərdim ki, bu, çox vacib bir məsələdir. Hamımız çalışırıq ki, ailələrimiz uzunömürlü olsun, ailə dəyərlərimiz yaşasın, ailə üzvlərinin hər birinin hüquqları qorunsun. Ancaq bəzən bu istəklər real olmur. Bu neqativ hallardan biri də məqsədli nikahlardır. Belə nikahların qarşısının alınması üçün Ailə Məcəlləsinin 12-ci maddəsinə, yəni nikahın bağlanmasına mane olan hallar sırasına yeni bir bəndin əlavə edilməsi təklif olunur. Bu dəyişikliyə əsasən aralarında nikahın bağlanmasına yol verilməyən şəxslərin sırasına ikisindən biri və ya hər ikisi ölkə ərazisində qanunsuz olan və yaxud yaşayan əcnəbilər və ya və-

təndaşlığı olmayan şəxslərin də əlavə edilməsi nəzərdə tutulur. Azərbaycanda heç bir hüquqi əsası olmadan yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin bir çoxu ölkə ərazisini tərk etməmək üçün çıxış yolu kimi Azərbaycan Respublikasının vətəndaşı ilə nikah bağlamağı seçirlər. Həmin evlilik əsl nikahdan çox az fərqlənir. Belə ki, onlar da qeydiyyat şöbəsində qeydə alınır və həyat yoldaşları ilə birlikdə yaşaya bilirlər. Lakin belə birliyin məqsədi ümumi qəbul edilmiş ailə dəyərlərindən uzaqdır. Əksər hallarda belə nikahlar vətəndaşlıq əldə etmək, işləmək və yaşamaq üçün bağlanır. Bu isə bir çox problemlərin yaranmasına gətirib çıxarır. İlk növbədə bu, hüquqi, sosial və mənəvi məsuliyyət məsələsidir. Biz dəfələrlə şahidi oluruq ki, belə nikahların böyük hissəsi uğursuz olur. Xüsusilə də əgər qadın nikah dövründə yeni uşaq dünyaya gətiribsə və ya əvvəlcədən tərəflərdən birinin uşağı varsa, onun və digər ailə üzvlərinin hüquqları pozulur. Bir çox hallarda onları müdafiə etmək çox çətindir. Məqsədli nikahlar qanunsuz miqrasiyaya səbəb olur, eyni zamanda, belə halların qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinə də mənfi təsir göstərir.

Qeyd edim ki, qanun layihəsi komitəmizdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Dövlət Miqrasiya Xidmətinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Milli Məclis Aparatının məsul şəxslərinin iştirakı ilə müzakirə olunmuşdur. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

Sahibə xanım, icazə verirsinizsə, mən 10-cu məsələni də səsləndirim. Orada da Ailə Məcəlləsində çox xırda bir

dəyişiklikdir, imkan dairəsində onu da səsləndirim.

**Sədrlik edən.** Çox hörmətli Hicran xanım, xeyr, biz bunu eləyə bilməyəcəyik. Çünki gündəliyimizdə 10-cu məsələdir. Biz isə hələ 7-ci məsələdəyik. Siz çıxışınızı qurtardınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm, Sahibə xanım. Əziz həmkarlar. Təbii ki, qanun layihəsinə müsbət münasibətimi də ifadə edəcəyəm. Sadəcə, konseptual bir məqama diqqət çəkmək istəyirəm. Azərbaycanda qanunsuz, sənədsiz yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəni tərk etməmək üçün saxta nikahlardan istifadə etməsinin qarşısını almaq üçün bu kateqoriyadan olan şəxslərlə nikahın bağlanmasını qadağan edən cari layihə mahiyyətcə məhdudlaşdırma xarakterli olsa da, çox ciddi bir reallığı üzə çıxarır. Bizim dövlətimiz inkişaf, tərəqqi və qüdrətin göstəricisidir. Əcnəbilər hansı dövlətdə yaşamaq istəyir? O dövlətdə ki orada sabitlikdir, rifah və inkişaf var. Bu qanun layihəsinin qəbulu göstərir ki, Azərbaycan artıq əcnəbilər üçün cazibədar ölkədir və bütün mümkün vasitələrlə ölkəyə can atanların statistikasının artması da artıq bu cür preventiv addımları zərurətə çevirib.

Hamı yaxşı xatırlayır ki, bir vaxtlar azərbaycanlılar özləri rifahı başqa yerdə axtarırdılar, amma indi Azərbaycan güzəran arzu edən əcnəbilər üçün ümid ölkəsinə çevrilib. Bunu ona görə deyirəm ki, vətəndaşlarımız proseslərin fərqinə varsınlar, haradan hara məsafə qət etdiyimizin mahiyyətini bilsinlər.

Digər tərəfdən, təbii ki, biz qapılarımızı heç kimin üzünə bağlamırıq. Bilirsiniz ki, dünən cənab Prezidentin

sərəncamı ilə yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı təsis edildi. Proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış yüksəkixtisaslı miqrantlara və onların ailə üzvlərinə münasibətdə güzəştlərin tətbiq edilməsi, proqram iştirakçılarının müraciətlərinin qəbulunun və cavablandırılmasının "bir pəncərə" prinsipi əsasında təmin edilməsi nəzərdə tutulur. Bu gün müzakirəmizdə olan bu layihə, əslində, həm də ötən gün möhtərəm Prezidentin imzaladığı sərəncamla uzlaşan vahid konsepsiyadır, sağlam miqrasiya siyasətinin formalaşmasına və milli təhlükəsizliyə xidmət edir. Bu mənada layihəyə dəstək vermək, təbii ki, vacibdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Arzu Nağıyev. Sualınız var, Arzu müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**A.Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Bu arayışda yazılır ki, hər ikisi ölkə ərazisində qanunsuz olan və yaxud yaşayan əcnəbilər. Ancaq o maddədə, sadəcə, göstərilir ki, ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan. Bu "yaşayan" sözünü də arayışa əlavə eləmək olar ki, məlum olsun, bu, həm də yaşayanlara aiddir.

**Sədrlik edən.** Arzu müəllim, gəlin, biz bu suala ikinci oxunuşda qayıdaq. Çünki bu gün birinci oxunuşdur. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Çıxışımın əvvəlində xırda bir qeydimi bildirmək istəyirəm. Bu da ondan ibarətdir ki, bizim bu sessiya artıq yekunlaşmaq üzrədir, başa çatır. Gözümüzün önündə Azər-

baycan parlamentinin keçdiyi uzun bir yol var. Mən xəyalən o yolun müxtəlif illərini, müxtəlif dövrlərini bir-biri ilə müqayisə edirəm. Öz təcrübəmə əsasən demək istəyirəm ki, Azərbaycanın 2020-ci ildən sonrakı həyatında nə qədər böyük dəyişikliklər olubsa, o dəyişikliklərin adekvat bir əks-sədası da bizim parlamentdə var. Parlamentin bu illər ərzində keçirdiyi görüşlər, beynəlxalq səfərlər, qəbullar, müxtəlif parlamentlər birliyinə rəhbərlik eləməsi – bu, Azərbaycan tarixində nadir hadisələrdən biridir. Mən şəxsən Sizin xidmətinizi ayrıca qeyd eləmək istəyirəm. Buna görə Sizə təşəkkürümü bildirirəm. Xüsusən TürkPA-nın sonuncu yığıncağının da burada çox uğurla baş tutması bizə bunu deməyə əsas verir.

Mən təklif olunan qanun layihəsi ilə bağlı fikrimi bildirmək istəyirəm. Əlbəttə, burada iki münasibət var. Birinci odur ki, şübhəsiz, vətəndaşlıq, miqrasiya məsələləri nizama salınmalıdır. Hər adam gəlib-gedə bilməz. Hər adam gəlib Azərbaycanda yurd sala bilməz. Amma bunun ikinci bir tərəfi var ki, biz bunu, təəssüf, görmürük, yaxud bununla məşğul olmaq istəmirik. Təxminən 3 milyon adam Azərbaycandan kənarda yaşayır. Rusiya da kənar dövlətdir. Bu adamların bir hissəsi məcbur olub, oraya iş dalınca gedib. Vətəndaşlıq alan, lakin ailəsi burada qalanlar var. Onlar qayıtdıqdan sonra burada vətəndaşlıq ala bilmirlər. Onların taleyi necə olmalıdır? Onlarca adamla rastlaşmışam, ailəsi buradadır, qayıdıb gəlib, vətəndaşlıq ala bilmir. Yaxud 30 il bundan əvvəl Azərbaycana köçmüş Axıska türkləri var ki, onların hələ də pasportu yoxdur. Pasport ala bilmirlər ki, buradan başqa ölkələrə köçüb getsinlər. Şamaxıda neçə ailə var. Deyirlər, uşaqlarımız Türkiyədədir, getmək istəyirik, amma əlimizdə vətəndaşlıqla bağlı bir sənəd yoxdur ki,

biz bu 30 ildə burada nə eləmişik. Sənəd olmalıdır ki, biz çıxıb gedək. Ona görə də bu vətəndaşlıq almaq məsələsi elə də asan deyil. Bəzən özümüz öz torpağımızda vətəndaşlıq ala bilmirik. Söhbət buraya kənardan gələnlərdən, təkcə miqrantlardan getmir. Ona görə bu məsələlər nizama salınmalıdır. Bu işlə çox ciddi şəkildə məşğul olmaq lazımdır.

Biz hamını ümumiləşdiririk. Ölkənin milli strateji xətti var. O xətti Prezident özü deyib və biz də bilirik. Tarixi bir faciədir ki, biz bölünmüş bir xalqıq, paramparça olan bir xalqıq. Kim isə Güneydən gəlir, əlində ağ bayraqla sərhədi keçir. Düzdür, həbs eləyirik, yoxlayırıq. Nə bilim, müxtəlif xətlərlə gəlib oxuyurlar. Bizim millətimizin nümayəndəsidir. Burada qalır, evlənir. Amma bizim vətəndaş deyil, burada yaşamaq hüququ yoxdur. Onun yüz-iki yüz mini yoxdur ki, o dəqiqə burada yaşamaqla bağlı icazə alsın. Amma sevir, evlənmək istəyir. Biz buna nə cür qadağa qoymalıyıq? Bəs onda biz Güneylə münasibətlərimizi hansı şəkildə inkişaf elətdirməliyik? Bu ailə bağlılığına necə qadağa qoyaq? Miqrasiya imkanı vermirik, yaşamaq hüququ, vətəndaşlıq vermirik. Burada yaşamaq hüququ ancaq varlılar üçündür. Bəs bu ağıllı, Azərbaycana xidmət eləyən insanların taleyi necə olsun?

Ona görə də mən hesab eləyirəm ki, bu məsələlər elə belə deyil. Deməli, nikah kiminsə burada yaşamağına haqq qazandırıb. O qədər xoşbəxt nikahlar var. Güneydən gələn uşaqlar evləniblər və gedib bu gün xaricdə Azərbaycan üçün nə qədər iş görürlər. Onları görməzdən gəlmək olmaz. Ona görə təklif olunan bu cür qanunlar hökmən bütün prinsiplər nəzərə alınaraq qəbul olunmalıdır. Bir miqrant problem yaradırsa da, hər birinə eyni gözlə baxmaq olmaz. Bu qanun layihəsinə kimsə

müsbət yanaşırsa, mən bunu milli strateji baxımdan ziyanlı hesab edirəm və səs verməyəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək. Daha çıxış etmək istəyən yoxdur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti, 8-ci məsələ Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Mahir Abbaszadəyə söz verirəm. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli sədr, hörmətli deputatlar. Qanun layihəsinə təklif olunan dəyişikliklər qanunlarda nəzərdə tutulan səlahiyyətlərin publik hüquqi şəxs statuslu qurumlar tərəfindən də həyata keçirilməsinə imkan yaratmaq məqsədi ilə təklif edilib. Dəyişikliklər son illər formalaşan hüquqi terminologiyalara uyğun olaraq hazırlanmışdır. Qeyd olunan qanunlarda “müvafiq icra

hakimiyyəti orqanı” ifadəsinin “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan” ifadəsi ilə əvəz edilməsi nəzərdə tutulur. Buna bənzər dəyişikliklər artıq bir neçə qanunda öz əksini tapmışdır. Hörmətli xanım sədr, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş, deputatların rəyləri müsbətdir. Səsə qoymağı və deputat həmkarlarımızdan dəstəkləməyi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Komitənin rəyini bilmək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Həmkarım Mahir müəllim geniş məlumat verdi. Bizim komitə lehinədir. Xahiş edirəm, səsə qoyaq.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 9-cu məsələsi “Mühasi-

bat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli xanım sədr, dəyərli həmkarlar və media nümayəndələri. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi və mühasiblərin peşə biliklərinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən peşəkar mühasib sertifikatlarının verilməsi üçün imtahanlar keçirilir. Qanuna uyğun olaraq, Nazirlər Kabineti peşəkar mühasib sertifikatlarının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması qaydalarını təsdiq edib. Bu gün müzakirəyə çıxarılan dəyişiklik adıçəkilən imtahanlarda iştirakın ödənişli olmasının, həmçinin bu imtahanda iştirak etmək üçün ödənişin məbləğinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilməsinin hüquqi əsaslarını təsbit edir. Beləliklə, qanun layihəsi peşəkar mühasib hüququnu əldə etmək prosesinin daha səmərəli təşkilinə xidmət edəcək.

Hörmətli həmkarlar, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilmiş və müsbət rəy almışdır. Dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 10-cu məsələsinə keçirik. Bu məsələ də Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Hicran xanım, mən indi Sizə söz verirəm. Buyurun, məlumat verin.

**H.Hüseynova**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ilə bağlı bildirmək istərdim ki, bu da olduqca əhəmiyyətli məsələdir.

Bildiyiniz kimi, 2014-cü ildə Ailə Məcəlləsinə dəyişiklik edilərək nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi icbari olmuşdur. 2015-ci ilin iyun ayından başlayaraq qanunvericiliyə uyğun olaraq, nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş xəstəliklər üzrə tibbi müayinədən keçirlər. Lakin ölkədən kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşları üçün bu, əlçatan deyil. Belə ki, onlar nikaha daxil olmaq məqsədi ilə tələb olunan tibbi müayinədən keçmək üçün Azərbaycan Respublikasına gəlməlidirlər. Bu isə nikaha daxil olmaq

istəyən şəxslər üçün maliyyə və vaxt itkisinə səbəb olur. Təklif olunan dəyişiklik isə həm bu halların qarşısını alacaq, həm də vətəndaşlarımızın nikah hüququnu qoruyacaqdır.

Təqdim olunan layihədə xarici ölkələrdə yaşayan vətəndaşlarımızın məcəllənin 13-cü maddəsində müəyyən edilmiş xəstəliklər üzrə tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin, konsulluq idarəsinin akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçməsi, həmçinin nikaha daxil olmaq barədə ərizəyə həmin tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənədin əlavə edilməsi təklif olunur.

Qanun layihəsinə komitəmizdə baxılıb. Bir çox dövlət qurumları da iştirak edib. Əslində, bu onların təşəbbüsü idi, onlar bu məsələ ilə bağlı Prezident Administrasiyasına, Milli Məclisə müraciət etmişdilər.

Layihəyə birinci oxunuşda baxılmışdı. Mən belə düşünürəm ki, bu layihə, doğrudan da, çox vacibdir. Təklif edərdim ki, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hicran xanım, Siz niyə 7-ci məsələ ilə 10-cu məsələni birləşdirmək istəyirdiniz? Bunlar müxtəlif qanunlardır. Siz bundan öncə məndən xahiş etdiniz ki, 10-cu məsələni deyəsiniz. Bunlar tamamilə ayrı-ayrı qanunlardır. Rəşad Mahmudov. Buyurun.

**R.Mahmudov**. Söz verdiyinizə görə çox təşəkkür edirəm. Əslində, komitənin üzvü olaraq bu layihəni dəstəkləmişik. Sahibə xanım, mən fürsətdən istifadə edərək bu məsələ ilə bilavasitə əlaqəsi olan, yaşadığımız bir mövzunu diqqətə çatdırmaq istəyirəm. Çünki birmənalı olaraq bu məsələ qanunvericilik orqanının predmetidir. 3 gün əvvəl qarşımıza çıxan bir hadisə idi. Gün keçdikcə

daha da artır. Çünki Azərbaycanda ciddi şəkildə səhiyyə islahatları gedir. Azərbaycan bəlkə də 106 illik şərəfli tarixinin səhiyyə sahəsində ən yüksək inkişaf dönəmini yaşayır: icbari tibbi sığortanın qəbulu, onunla birlikdə "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Qanun, ölkədə real işlərin görülməsi, icbari tibbi sığortaya bu məsələnin daxil edilməsi.

Deyəcəksiniz, bəs bu mövzu ilə əlaqəsi nədir? Demək, gənc bir qadın serroz xəstəliyindən xəstəxanada müalicə alarkən bütün bu imkanlardan istifadə etmək hüququ əldə edib. Əməliyyat olarkən ailə üzvlərindən üçünün donorluq imkanı yox idi. Bir qardaşı Rusiya vətəndaşı olduğuna görə gəldi, qeydiyyatdan keçdi və əməliyyat üçün razılıq alma mərhələsində koordinasiya mərkəzinə müraciət olundu. Koordinasiya mərkəzi birmənalı olaraq qanunvericilikdə bunun mümkün olmayacağını bildirdi. Səbəb də bizim daha əvvəl qəbul etdiyimiz qanunda birmənalı olaraq xarici vətəndaşların ölkəmizdə orqan transplantasiyasında istər donor kimi, istərsə də resipiyent kimi tətbiqinə imkan vermir.

Əslində, biz qısa müddət içərisində beynəlxalq təcrübəyə baxdıq. Bu gün Azərbaycan vətəndaşlarının istənilən ölkədə öz donorunu götürüb həmin ölkənin tibbində müalicə olunmaq haqları var. Bu, Rusiya, Belarus, Türkiyə, Almaniya üçün keçərlidir. Ona görə də mən fürsətdən istifadə edərək, bilavasitə bu hadisə ilə əlaqəli olduğunu düşünərək bu mövzunu dilə gətirdim ki, başqa ölkə vətəndaşı olan çoxsaylı soydaşlarımız var ki, icbari tibbi sığortanın imkanlarından istifadə etməsələr belə, Azərbaycanın bu gün inkişaf etmiş tibb imkanlarından istifadə edərək ölkəmizdə bu əməliyyatların həyata keçirilməsini istəyirlər. Bunun hüquqi tərəfdən yarada

biləcəyi problemlər də nəzərə alınsa, bu gün Səhiyyə Nazirliyi nəzdində bu işləri tənzimləmək üçün koordinasiya mərkəzi yaradılıb və bu, həqiqətən, mütərəqqi bir funksionallığı da bərpa etmiş vəziyyətdədir. Həmin vətəndaşlar da müraciət etdiyi zaman o ölkələrin səfirliklərindən müraciət edən insanlarla əlaqəli daha dərin araşdırmalar aparmaq da mümkün olacaq.

Ölkəmizdə tibbin inkişafında bəzi sahələr vardır ki, onlar lokomotiv rolu oynayaraq gələcəkdə turizmin, xüsusilə də tibbi turizmin inkişafına böyük dəstək verə biləcəklər. Bir daha bütün millət vəkillərini bu qanun layihəsinə dəstək verməyə çağırıram. Fürsət yaratdığınıza görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Cəfərov Müşfiq. Buyurun.

**M.Cəfərov.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də öz növbəmdə qanun layihəsini dəstəkləyirəm və lehinə səs verəcəyəm. Tibbi müayinə artıq bir neçə ildir, həyata keçirilir. Hesab edirəm ki, öz bəhrəsini də verir. Mən bununla bağlı statistika əldə etmək üçün bir araşdırma apardım ki, hansı rəqəmlər var, nə qədər cütlük tibbi müayinədən keçib, hansı xəstəliklər aşkarlanıb və nikaha girmək üçün imtina olunub. Bunu əldə edə bilmədim. Mən düşünürəm ki, bəlkə də komitədə bu məlumatlar var.

Bu gün əsas məsələlərdən biri odur ki, boşanma hallarının sayı gündən-günə artır. Yanvar, fevral aylarına baxsaq, gün ərzində boşanma sayı təxminən 50-nin üzərindədir. Düşünürəm ki, bu, bir həyəcan təbilidir! Biz bununla bağlı ciddi addımlar atmalıyıq. Bizdə vətəndaş nikahı yoxdur. İnsanlar tövsiyə, məsləhət əsasında ailə qururlar. Bir çox hallarda insanlar bir-birlərini çox yaxından tanımırlar. Düşünürəm ki, Ailə, qadın və uşaq

məsələləri komitəsi bununla bağlı ciddi bir layihə işləyə bilər. Hətta bir pilot layihə ola bilər ki, maarifləndirmə, seminar, treninqlər keçirilər. Cütlüklər bir araya gələrək ailə institutu haqqında maariflənər, ümumiyyətlə, ailə qurduqdan sonra hansı məsuliyyətlərin, öhdəliklərin olduğu ilə bağlı məlumatlı olar, həmçinin bir-birilərini yaxından tanıyarlar. Hətta sonda sertifikat da almış olarlar ki, nikaha daxil olsunlar. Necə ki biz sağlamlıqla bağlı addım atmışıq və bu gün nəticəsini görürük, eləcə də gələcək münasibətlərlə bağlı bu addım atılarsa, öz bəhrəsini vermiş olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən indi qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməmədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Kamal müəllim, mən Sizdən xahiş edirəm. Buyurun, bununla bağlı məlumatı bu gün Siz verirsiniz.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsinin məqsədi iri qabaritli və ya ağır çəkili nəqliyyat vasitələri tərəfindən müvafiq parametrlərin pozulmasına görə müəyyən edilmiş inzibati xətanın dəqiqləşdirilməsi və icraatın təkmilləşdirilməsidir.

Birincisi, təklif edilən dəyişikliklər elektron tərəzilərə foto və ya video qeydiyyat funksiyalarının inteqrasiya edilməsi, inzibati cərimənin təkcə bank ödənişi və ya ödənən terminal ilə deyil, həm də plastik kart, elektron ödəmə sistemləri vasitəsi ilə ödənilməsini əhatə edir.

İkincisi. İri qabaritli və ya ağır çəkili nəqliyyat vasitələri tərəfindən daşınan yüklər bölünən və ya bölünə bilməyən yüklər kimi dəqiqləşdirilir. Hər biri üçün adekvat və ədalətli icra dəqiq müəyyən edilir. Layihədə yuxarıda qeyd olunan məsələlərdən irəli gələn uyğunlaşdırma xarakterli dəyişikliklər nəzərdə tutulmuşdur. Qeyd edilənləri nəzərə alaraq həmkarlarımı layihənin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

12-ci məsələ Vergi Məcəlləsində, "Dövlət rüsumu

haqqında" və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair, Tahir müəllim, xahiş edirəm, Siz məlumat verin. Mən sözü Sizə verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi kifayət qədər vacib və maraqlı olduğundan, çalışacağam, bir az ətraflı təqdim edim. Təklif olunan qanun layihəsinin əsas məqsədi müdafiə sənayesi sahəsində sahibkarlıq fəaliyyətinin liberallaşdırılmasına, yəni özəl sektor subyektlərinin qeyd olunan sahədə fəaliyyət göstərməsinə icazə verilməsi nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müdafiə təyinatlı məmulatlarla təchizat dayanıqlılığının təmin edilməsində dövlətin yükünün və ixracdan asılılığın azaldılmasına, ümumilikdə isə müvafiq sahə üzrə yerli istehsalı və ixracı artırmaqla sahənin inkişafına nail olmaqdır.

Qeyd etmək istəyirəm ki, təklif olunan bu model həmçinin müdafiə sənayesi sahəsində inkişaf etmiş xarici ölkələrin, Türkiyənin, İsrailin, Amerika Birləşmiş Ştatlarının təcrübəsində də geniş tətbiq olunmaqdadır.

Bildirmək istərdim ki, qanunvericiliyin mövcud redaksiyasında döyüş təyinatlı hərbi texnika, silah və döyüş sursatı mülki dövriyyədə olmasına yol verilməyən əşyalar siyahısındadır. Yəni hazırda özəl sektor tərəfindən bu məhsulların istehsalı qadağandır. Bundan başqa, adıçəkilən əşyaların istehsalı və dövlət orqanlarının ehtiyaclarının qarşılanması məqsədi ilə satışının yalnız dövlət müəssisələri tərəfindən həyata keçirilməsinə icazə verilməkdədir. Təklif olunan dəyişikliyə əsasən döyüş təyinatlı hərbi texnikanın və hərbi silahın, döyüş sursatının mülki dövriyyəsinin daha da liberallaşdırılması təmin

olunur. Bununla da onların satışının, idxalının və ixracının xüsusi icazə əsasında həyata keçirilməsinin hüquqi əsası yaradılır.

Beləliklə, döyüş təyinatlı hərbi texnika, hərbi silah, döyüş sursatı və onların layihələndirilməsi və istehsalı üçün avadanlıq, habelə onlar üçün ehtiyat hissələri mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola biləcək və dövriyyədə olmasına xüsusi icazə əsasında yol veriləcəkdir.

Layihəyə əsasən döyüş təyinatlı hərbi texnikanın və hərbi silahın, döyüş sursatının layihələndirilməsi, istehsalı və sınaqdan keçirilməsi, quraşdırılması, montajı, təmiri və texniki xidmət göstərilməsi, saxlanılması, utilizasiyası kimi fəaliyyət növləri dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növləri siyahısına əlavə olunur və həmin fəaliyyət növlərinə görə 10 min manatdan 50 min manata qədər dövlət rüsumu dərəcələri müvafiq qanunda müəyyən olunmuşdur.

Qeyd etmək istərdim ki, paylarının, yəni səhmlərinin 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərə lisenziya alınması tələbi şamil edilmir. Bu sahədə fəaliyyətin dəstəklənməsi və onların fəaliyyətinin təşviqi üçün vergi və gömrük güzəştlərinin tətbiq dairəsinin də genişləndirilməsi təklif olunur. Belə ki, Vergi Məcəlləsinə əsasən hazırda müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın idxalı və həmin şəxslər tərəfindən istehsal edilmiş müdafiə təyinatlı məmulatların satışı əlavə dəyər vergisindən azaddır. Təklif olunur ki, bu dairə daha da genişləndirilsin və müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı ilə məşğul olan şəxslərlə yanaşı,

onların satışını, təmirini və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirən bütün şəxslərin də həyata keçirdiyi idxal, satış, təmir və texniki xidmət əlavə dəyər vergisindən azad edilsin.

Eyni zamanda, hazırda dövlət müəssisələri tərəfindən müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədi ilə idxal edilən bütün texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələrin idxalı gömrük rüsumundan azaddır. Təklif olunur ki, yeni dəyişikliyə görə, bu azadolmanın dairəsi genişləndirilsin. Azadolmanın müdafiə təyinatlı məmulatların layihələndirilməsi, istehsalı, satışı, təmiri və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirəcək bütün subyektlərə şamil edilməsi nəzərdə tutulur.

Beləliklə, layihənin qəbul edilməsi müdafiə sənayesində mühüm rol oynayan xüsusi istehsal və texniki xidmətlə yanaşı, bu hadisələrdə və prosesdə özəl sektorun rolunu və iştirakını artırmağa, ümumi olaraq isə iqtisadiyyatımızı daha da gücləndirməyə imkan verəcəkdir. Komitənin rəyi müsbətdir, həmkarlarımı layihəni dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Mən indi komitənin rəyini bildirmək üçün hörmətli Ziyafət müəllimə söz verirəm. Ziyafət Əsgərov. Buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bizim komitənin də rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim sonuncu məsələmiz "Auditor xidməti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Anar Məmmədova söz verirəm. Anar müəllim, buyurun, məlumat verin.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Bildiyimiz kimi, "Auditor xidməti haqqında" Qanuna əsasən sərbəst auditor və auditor təşkilatları aparılan audit məlumatlarını məxfi saxlamalıdırlar. Hazırda üç halda məhkəmələrin tələbi ilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə əlaqədar və maliyyə bazarına nəzarət çərçivəsində bu məlumatlar qeyd olunan orqanlara təqdim edilə bilər. Dəyişikliyə əsasən daha bir halın əlavə edilməsi nəzərdə tutulur. Bununla da Azər-

baycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə çərçivəsində xarici ölkələrin səlahiyyətli orqanlarından daxil olan müraciətlərin icrası məqsədi ilə qanunla müəyyən edilmiş hallarda vergi orqanlarının tələbi ilə auditorun məlumatının verilməsi hüquqi əsası yaradılır.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş şəkildə müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir. Hörmətli həmkarlarımızdan qanun layihəsinə səs verib dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 14-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## *7 iyun 2024-cü il*

**Afət Həsənova.** Ailə Məcəlləsində dəyişikliklərin edilməsi ilə bağlı Milli Məclisin müzakirəsinə çıxarılmış bu qanun layihəsi ölkəmizdə nikahdan sui-istifadə edən qanunsuz miqrantların müəyyən edilməsi və qanunsuz miqrasiyanın qarşısının alınması məqsədi daşıdığından layihəni dəstəkləyirəm.

Yeri gəlmişkən, ailə, nikah məsələləri ilə bağlı mövcud və acınacaqlı hesab etdiyim bir məqama – boşanmaların sayının sürətlə artmasına diqqət çəkmək istəyirəm. Belə ki, rəsmi statistik məlumatlara görə, əhalimizin sayının artmasına baxmayaraq, 2011–2019-cu illərdə nikaha daxil olanların sayı 88 min 145-dən 63 min 835-dək azalmış, boşanma sayı isə 10 min 747-dən 17 min 148-ə qədər artmışdır. 2023-cü ildə isə Azərbaycanda nikahların sayı 2022-ci illə müqayisədə 12,5 faiz azalmış, boşanmala
35,7 faiz artmışdır. Yəni ölkədə 54,2 min nikah və 21
min boşanma qeydə alınmışdır. Bu, olduqca acınacaq
təcili tədbirlər görülməli haldır.

Texnologiya həyatımıza sürətli şəkildə daxil olmaqla yanaşı, müəyyən problemləri də özü ilə gətirib. Bilirsiniz ki, əsasən, qadınlarımız xoşbəxt görünmək üçün sosial mediada sanki yarışırmış kimi çox böyük səy göstərir, dəbdəbəli yaşayırmış kimi paylaşımlar edirlər. Bəzi xanımlarımız isə saxtalıqla dolu bu həyatlara baxıb özlərinin layiqli həyat yaşamadığını düşünərək ailədə münaqişə yaradırlar. Hesab edirlər ki, boşansalar, tək daha rahat, müstəqil həyat yaşaya biləcəklər. Məhkəmə pro-

sesində də qanunvericilik ananı müdafiə edərək uşağı anaya verəcək, nəticə etibarı ilə aliment də alacaqlar, əri ilə birgə nikah dövründə əldə olunan müəyyən əmlakın bir hissəsinə də sahib çıxacaqlar. Təəssüflər olsun ki, həqiqətən də, azyaşlı uşaqların daha çox analara verilməsi boşanma sayının artma səbəblərindəndir.

Eyni zamanda, hesab edirəm ki, problemin digər səbəblərindən biri də dəbdəbəli həyatları göstərən ekranın arxasındakı çətinliklərin, reallıqların və saxtalıqların görülməməsidir. "Stanford" Universitetində tədqiqatçılar sosial şəbəkələrdə "ördək sindromu" adlı diaqnoz təyin ediblər. Yəni su üzərində necə rahat hərəkət edirmiş kimi görünən ördəyin suyun altında ayaqlarının necə əziyyət çəkdiyini təkcə ördək özü bilir.

Bundan əlavə, təhsil müəssisələrimizdə də təlimlə bərabər, tərbiyə işinin təşkilinə ciddi fikir verilməli, müəllimlərimizin nüfuzu geri qaytarılmalı, həmin müəssisələrdə gənclərimizə erkən yaşlarından etik davranış qaydaları, ailə üzvlərinə sevgi, böyüklərə hörmət, məsuliyyət, çalışqanlıq, ailə mədəniyyəti və sair kimi mənəvi dəyərlər aşılanmalı, lazım gələrsə, bu, əlavə fənn kimi tətbiq edilməlidir. Vaxtı ilə belə bir fənnin tətbiqi təcrübəmiz olmuşdur.

**Azər Badamov.** Ölkədə aparılan uğurlu siyasi-iqtisadi kurs və neft-qaz gəlirlərinin müsbət tendensiyası sayəsində cari ilin 4 ayında dövlət büdcəsi gəlirləri artmışdır. Bugünkü iqtisadiyyatın müsbət dinamikası ilin sonuna qədər də büdcə gəlirlərində artımların davamlı olacağını, makroiqtisadi vəziyyətin daha da yaxşılaşacağını, dövlət büdcəsi qarşısında qoyulacaq yeni vəzifələrin də uğurla icra ediləcəyini proqnozlaşdırmağımıza imkan verir.

Gəlirlərin artması dövlətin imkanlarını daha da geniş-

ləndirir və dövlət büdcəsinə yenidən baxılaraq vacib istiqamətlərdə xərclərin artırılmasına imkan yaradır. Bu baxımdan, dövlət büdcəsində düzəlişlər edilərək xərclər bölməsinə təxminən 3,8 milyard manat vəsaitin əlavə olunması bir çox vacib istiqamətlər üzrə görüləcək işlərin daha da genişləndirilməsində etibarlı maliyyə təminatını həyata keçirməyimizə yol açacaq.

Dürüstləşmənin nəzərdə tutulduğu xərclər bölməsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına təxminən 1,2 milyard manatın əlavə olunmasını xüsusilə qeyd etmək istəyirəm. Çünki işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına ayrılan xərclərin artırılması "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı daha sürətlə icra etməyimizə və keçmiş məcburi köçkünlərin öz ata yurdlarına qayıtması prosesinin sürətlənməsinə imkan verəcəkdir. Biz işğaldan azad olunmuş əraziləri öz büdcə gücümüz hesabına dirçəldirik. Məhz büdcə gəlirlərimizin artması Şuşaya, Xocalıya və digər azad olunmuş ərazilərə qayıdan insanlar üçün müasir həyat şəraitinin qurulmasına, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarımızı əsl cənnətə çevirməyimizə imkan verir.

Büdcə xərclərində nəzərdə tutulmuş əlavələrdə həm də ölkənin müdafiə və milli təhlükəsizlik məsələlərinin gücləndirilməsinə vəsaitlərin əlavə olunmasını əhəmiyyətli hesab edirəm. Çünki ölkənin milli müdafiəsinin təşkili daha da möhkəmlənməlidir. Ordumuzun bütün ehtiyacları yüksək səviyyədə təmin olunmalıdır. Müdafiə və milli təhlükəsizliyin güclü olması suverenliyimizi əbədi edir. Ona görə də dövlətin büdcə gücü artdıqca bu istiqamətlər daim diqqət mərkəzində saxlanılmalıdır.

Dövlət büdcəsinin xərclərinə edilən düzəlişlərdə investisiya xərclərinin də artırılmasının təklif olunduğunu nəzərə alaraq təmsil olunduğum Qusar rayonunun qazlaşdırılması məsələsini bir daha diqqətinizə çatdırmaq istəyirəm. Bu gün Qusar rayonunun yaşayış məntəqələrində qazlaşmanın sürətləndirilməsinə ehtiyac var. Çünki rayonun çoxlu yaşayış məntəqələrinin qazlaşmaması meşələrin kəsilməsinə yol açır. Meşələr isə bu gün bizə həmişəkindən də çox lazımdır. İqlim dəyişiklikləri ilə bağlı COP29 beynəlxalq konfransına ev sahibliyi etdiyimizi də nəzərə alaraq, heç olmasa, rayon mərkəzinə yaxın böyük yaşayış məntəqələrinin qazlaşdırılmasının sürətləndirilməsi məsələsini büdcənin investisiya xərcləri çərçivəsində nəzərə almağınızı bir daha xahiş edirəm.

* * *

Biz 2023-cü ilin dövlət büdcəsi zərfini müzakirə edəndə qəbul edəcəyimiz büdcənin qalib ölkənin büdcəsi olduğunu qeyd edirdik. Həqiqətən, 2023-cü il dövlət büdcəsi gəlirlərə və xərclərə görə qələbəmizin möhkəmlənməsinə, vətəndaşların rifahının yaxşılaşmasına və nəzərdə tutulmuş bütün layihələrin icrasına yol açdı.

Büdcənin uğurlu olması üçün ilk növbədə büdcə gəlirləri bölməsində proqnozlaşdırılan bəndlər icra olunmalıdır. Təqdimatdan göründüyü kimi, 2023-cü ilin dövlət büdcəsinin gəlirləri hətta proqnozda nəzərdə tutulduğundan da artıq icra olundu. Bu, ölkədə iqtisadi siyasətin düzgün aparılmasının göstəricisidir. Qeyd etmək istəyirəm ki, büdcə gəlirlərində neft sektorunun payının azaldılması siyasəti uğurla davam etdirilir. Bu baxımdan, dövlət dəstəyi ilə fəaliyyətə başlayan yeni istehsal sahələri ixrac yönümlü məhsulların istehsalını genişləndirməklə gələ-

cəkdə dövlət büdcəsi gəlirlərinin neftdən asılılığının minimuma enməsinə töhfə verəcəkdir.

Nəzərə almalıyıq ki, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun potensialı daha böyükdür. Biz mövcud potensialımızı istehsala çevirdikcə idxaldan asılılığımızı azalda və iqtisadiyyatımızı xarici təsirlərdən daha yaxşı qoruya bilərik. Qeyri-neft sənayesi emal sənayesindən başlamış qeyri-neft sektorunun digər sahələrini əhatə etməlidir. Bu baxımdan, qeyri-neft sənayesi inkişaf etdikcə iqtisadiyyatımız daha möhkəm və dayanıqlı olacaq.

Dövlət büdcəsinin xərclər bölməsinin icrasının uğurlu olduğunu hər birimiz qeyd edə bilərik. Çünki işğaldan azad olunmuş ərazilərdə icra olunan meqalayihələr, yeni şəhər və kəndlərin ərsəyə gəlməsi, uzun illər ağır həyat şəraiti yaşamağa məcbur olmuş keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması dövlət başçımızın apardığı uğurlu siyasi kursun və büdcə gəlirlərinin müəyyən olunmuş istiqamətlərdə səmərəli xərclənməsinin göstəricisidir. Dövlət başçısının rəhbərliyi altında hökumətimiz dövlət büdcəsinin qarşısında duran vəzifələri icra etdirməklə xarici dövlət borcunu minimuma endirir, ordunu gücləndirir, həm də sosial siyasəti uğurla davam etdirir.

Cari ildə də büdcə gəlirlərinin artırılması və xərclərin əhatə dairəsinin səmərəli şəkildə genişləndirilməsi istiqamətində işlər davam etdirilməkdədir. Dayanıqlı büdcə gəlirləri olan ölkələrin iqtisadiyyatları daha güclü hesab olunur. Bu baxımdan, iqtisadiyyatın şəffaflaşdırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi sayəsində çox gəlir əldə edilərək dövlət büdcəsi daha dayanıqlı olacaq və xalqımızın rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

**Jalə Əliyeva.** Qanun layihəsi bir daha ölkəmizin inkişafından, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə

hazırlanan sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrasından xəbər verir. Bütün nailiyyətlərimizin arxasında xalqın həyat tərzinin durmadan yaxşılaşdırılmasını, ölkəmizi bölgənin və dünyanın ən əhəmiyyətli ölkəsinə çevirməyi hədəf götürən dəmir iradə siyasəti dayanır. Bu uğurlarla fəxr edirik və ölkə rəhbərinə sonsuz minnətdarlığımızı bildiririk. Eyni zamanda, hökumətimizə büdcə müzakirələri və Nazirlər Kabinetinin hesabatları zamanı səsləndirdiyimiz təklifləri, o cümlədən yazılı müraciətlərimizin bir qismini nəzərə alaraq müsbət həll etdikləri üçün seçicilərimiz adından təşəkkürlərimi çatdırıram.

Deputatı olduğum Zərdab və Ucar rayonları üzrə 2023-cü ildə görülən işlərə diqqət çəkmək istəyirəm.

1. Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanan regionların sosial-iqtisadi inkişafı planı çərçivəsində həyata keçirilən qazlaşdırma işlərinin Zərdab rayonunda, o cümlədən rayonun Kəndəbil, Ağabağı və Alıcanlı (Cilovxanlı) kəndlərində sürətləndirilməsi və başa çatdırılması üçün etdiyimiz müraciət müsbət həllini tapıb və nəticədə həmin kəndlər də qazlaşdırılaraq rayonun bütün ərazisi üzrə kəndlərin qazlaşdırılması işi tamamlanıb.

2. Rayonun Kəndəbil, Şıxbağı, Nəzəralılı və Ağabağı kəndlərini magistral yola bağlayan ana yol əsaslı təmir olunaraq ötən il istifadəyə verilib.

3. Zərdab rayonunun Şəftəhal, Mehdililər, Aşağı Seyidlər, Gəlmə kəndlərinin və ümumilikdə, rayon üzrə zəif olan internet xəttinin yenisi ilə əvəzlənməsi, eyni zamanda, bu işlərin sürətləndirilməsi ilə bağlı daha əvvəlki illərdə etdiyimiz müraciət qısa müddətdə müsbət həllini tapıb. Belə ki, bundan iki il əvvəl ilk növbədə həmin kəndlərdə, daha sonra isə digər kəndlərdə yeni, müasir standartlara uyğun internet şəbəkəsi qurulub. İnternetləş-

mə işlərinin 2024-cü ilin iyun ayında rayon ərazisi üzrə tamamilə başa çatması nəzərdə tutulub.

4. Rayonun əsaslı təmirə və tikintiyə ehtiyacı olan kənd məktəbləri ilə bağlı təqdim etdiyimiz siyahıda adı keçən məktəblərin bir qismi nəzərə alınıb. Belə ki, Bıçaqçı kənd tam orta məktəbinin əsaslı təmir layihələri hazırlanıb, 2023-cü ilin sonunda isə Dəli Quşçu kənd orta məktəbinin tikintisinə başlanılıb.

5. Ümumi uzunluğu 24,5 km təşkil edən Ucar–Zərdab–Ağcabədi magistral yolunu rayonun Məlikumudlu, Məmmədqasımlı, Məlikli, Burunlu və Qoruqbağı kəndləri ilə birləşdirən avtomobil yollarında əsaslı təmir işlərinin aparılmasının vacibliyi ilə bağlı müraciətimiz də nəzərə alınıb və təmir işlərinin 2024-cü ildə aparılması nəzərdə tutulub.

6. Zərdab rayonunun Çallı, Məlikumudlu, Qoşaoba və Təzəkənd kəndlərinin əkinə yararlı torpaqlarının su təminatındakı problemləri aradan qaldırmaq üçün etdiyimiz müraciət müsbət həllini taparaq Alıcanlı-1 nasos stansiyasında köhnə nasos yenisi ilə əvəz olunub və digər nasoslar təmir edilib.

7. Şahhüseynli kəndinin su təchizatının yaxşılaşdırılması ilə bağlı müraciətimiz də həllini tapıb, 834 hektar əkin sahəsini su ilə təmin edən boru kəmərinin və beton kanalın tikintisinə başlanılıb və hazırda tikinti işləri davam edir.

8. Zərdab rayon mərkəzi stadionunun əsaslı təmirə ehtiyacı olduğuna dair daha əvvəlki illərdə davamlı olaraq etdiyimiz müraciət də ötən il müsbət qarşılanıb və 2024-cü ildə mərkəzi stadionun əsaslı təmiri nəzərdə tutulub.

9. Ucar rayonunun deputatı olduğum Lək kəndinin 750 hektar pay torpaqlarının suvarma suyu ilə təmin olun-

masını yaxşılaşdırmaq məqsədi ilə etdiyimiz müraciət də müsbət cavablandırılıb və Göyçay çayı üzərində yerləşən dizel su nasosu elektrik su nasosu ilə əvəzlənib.

Bütün görülən işlər üçün başda Prezident İlham Əliyev olmaqla, hökumətimizə bir daha təşəkkür edir, eyni zamanda, Zərdab və Ucar rayonları üzrə bir neçə dəfə səsləndirdiyimiz və həllini gözləyən digər məsələləri də bir daha Nazirlər Kabinetinin diqqətinə çatdırmaq istəyirəm.

1. Zərdab rayonunda tikintisi 2011-ci ildə başlayan, 13 km-lik məsafəsi çəkildikdən sonra naməlum səbəblərdən 2012-ci ildə yarımçıq qalan kanalizasiya sistemində işlərin davam etdirilməsi;

2. Türyançayda su qıtlığı ilə əlaqədar əvvəllər mövcud olmuş ÇTZ kanalının 21 km məsafədə bərpası. Bu zaman su qıtlığı dövründə həmin kanal vasitəsi ilə əlavə olaraq Türyançayı Kür suyu ilə təmin etmək olar;

3. Rayonun Çallı, Məlikumudlu, Qoşaoba və Təzəkənd kəndlərinin əkin sahələrinin su təminatı üçün Qızlıq kanalının əsaslı təmiri;

4. Zərdab rayonunun Məlikumudlu, Şahhüseynli, Dəlı Quşçu, Xanməmmədli, Məmmədqasımlı, Bıçaqçı, Məlikli, Sarıqaya kənd yollarını mərkəzi yolla birləşdirən hissəsinin əsaslı təmiri. Doğrudur, bir az əvvəl səsləndirdik ki, həmin yolun çəkilişi 2023-cü ilin planına salınıb, lakin artıq 2024-cü ilin ilk yarım ili keçsə də, hələlik təmir-tikinti işləri başlanmayıb;

5. Rayonun Şəftəhal, Bəyimli, Məlikli, Əlibəyli kənd orta məktəbləri üçün yeni binanın tikintisi (Şəftəhal və Bəyimli məktəbləri plana salınsa da, işlərə hələ başlanmayıb);

6. Rayonun Körpükənd, Gəlmə, Kəndəbil, Şahhüseynli, Gödəkqobu, Məmmədqasımlı kənd orta məktəblərinin

əsaslı təmiri;

7. Bir az əvvəl qeyd etdik ki, rayon mərkəzi stadionunun əsaslı təmirinə köməklik göstərilməsi üçün etdiyimiz çoxsaylı müraciətlər həllini tapıb və mərkəzi stadionun 2024-cü ildə tikintisi plana salınıb. Lakin hələlik bununla bağlı rayonda heç bir iş başlamayıb;

8. Qəzalı vəziyyətdə olan Zərdab rayon Məlikli və Körpükənd kənd xəstəxanaları üçün yeni binaların tikintisi;

9. Şəhid ailələri və Qarabağ əlilləri üçün 36 mənzilli binanın tikintisi;

10. Rayonun mədəniyyət evinin əsaslı təmiri;

11. Qəzalı vəziyyətdə olan tarix-diyarşünaslıq muzeyi üçün yeni binanın tikintisi;

12. Ucar rayonunun Xələc, Lək və Bərgüşad kəndlərinin əkin sahələrinin suvarılmasında olan problemlər;

13. Lək kənd mədəniyyət evinin əsaslı təmiri;

14. Bərgüşad kəndində yeni mədəniyyət evinin tikintisi.

**Malik Həsənov.** Təqdim olunan "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi dövlətimizin günbəgün artan iqtisadi qüdrətinin təcəssümüdür. Təbiidir ki, bütün bu uğurlar möhtərəm cənab Prezidentimizin məqsədyönlü və illər öncə peşəkarcasına hazırladığı və həyata keçirdiyi siyasətin nəticəsidir. Bir neçə il əvvəl bəlkə də düşünməzdik ki, bizim dövlət büdcəsi dürüstləşdirilən zaman işğaldan azad olunmuş torpaqların bərpasına və sürətli qayıdışın təmin olunmasına vəsait ayıracağıq. Aparılmış və ciddi ölçülüb-biçilmiş büdcə siyasəti nəticəsində dövlət büdcəsində yanvar–aprel aylarının makrofiskal nəticələri yeni büdcə proqnozlarının üzərində işləməyimizə imkan verir.

Real statistik rəqəmlərdən çıxış etsək, ötən ilin eyni dövrü ilə müqayisədə ümumi daxili məhsul real ifadədə 4,3 faiz, qeyri-neft sektoru isə 7,7 faiz artmışdır. Müvafiq olaraq inflyasiya tempi də azalmış, orta inflyasiya göstəricisi 0,7 faiz təşkil etmişdir.

Təklif olunan layihədən göründüyü kimi, cari büdcənin 2 milyard 944,3 milyon manat artırılması nəzərdə tutulur. Bu da ötən illə müqayisədə 8,9 faiz çoxdur. Əgər yeni layihədə artıma yönəldilmiş büdcə xərclərini incələsək, onda ən çox vəsaitin qayıdış prosesinə sərf olunmasının nəzərdə tutulduğunu görərik. Bu dövrə qədər biz hər il dövlət büdcəsini müzakirə edəndə onun sosial xarakterli olduğunu qeyd edirik.

2020-ci il Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra hər il üçün qəbul edilən dövlət büdcəsini obrazlı şəkildə qayıdış büdcəsi adlandıra bilərik. Bu gün gözlərimizin önündə təxminən 12 min kvadrat kilometr ərazinin hər bir qarışında yeni şəhərlərin, yeni kəndlərin, müasir infrastrukturun qurulmasını görürük. Xüsusilə qeyd etmək lazımdır ki, aparılan işlər yüksək keyfiyyətlə və fantastik sürətlə görülür. Məsələyə dünya ölkələri təcrübəsindən yanaşsaq, dünyanın elə bir ölkəsinə rast gəlmərik ki, müharibədən sonrakı quruculuq işlərini tək öz vəsaiti hesabına həyata keçirsin. Həmişə bir qayda olaraq müharibədən sonra müxtəlif beynəlxalq təşkilatların xətti ilə donor ölkələrin konfransları təşkil edilir, yardım və ianələr cəlb olunur. Lakin ölkəmizin iqtisadi qüdrəti nəinki bu xərclərin öhdəsindən öz imkanları hesabına və şərəflə gəlməyə imkan verir, hətta paralel olaraq Azərbaycan digər beynəlxalq yardım aksiyalarında iştirak edir. Əldə edilən bütün bu uğurların əsas memarı və müəllifi möhtərəm cənab Prezidentimizdir.

Qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, təqdim olunan layihə uğurla hazırlanmışdır, iqtisadi çağırış və qanunauyğunluqlara cavab verən səviyyədədir.

**Sahib Alıyev**. Bildirmək istəyirəm ki, 2023-cü il üzrə Açıq Büdcə İndeksi hesabatında Azərbaycanın mümkün 100 baldan 67 bal toplayaraq 21 pillə irəliləyib 125 ölkə arasında 23-cü yeri tutmasının arxasında gərgin zəhmətin və məqsədyönlü fəaliyyətin dayandığı elə bu qanun layihəsində də özünü göstərir. Çünki beynəlxalq qurumlar həmin qiymətləndirməni 8 əsas büdcə sənədinə dayanaraq aparıblar. Ancaq mən bu fikirdəyəm ki, əgər dövlətin qarşısında duran strateji hədəflər düzgün qiymətləndirilərək onlara uyğun xərclər ayıran büdcənin reytinq cədvəli tutulsaydı, Azərbaycan bəlkə də ilk beşlikdə yer alardı. Çünki beynəlxalq konyunktura rəğmən, torpaqlarımızın işğaldan azad edilməsi, üzərində suverenliyin təmini və bir sıra dövlətlərdən fərqli olaraq təkcə sözdə deyil, əməldə də müstəqil siyasət yeridə bilməsi həmçinin büdcə siyasətində prioritetlərin düzgün seçilməsinin nəticəsidir.

Millət vəkillərimiz xatırlamamış olmazlar, bizim marginal, girəvəçi və girəvəçi olduqları qədər də antimilli ünsürlər bir zamanlar büdcəmizdə hərbi xərclərin artırılmasına dodaq büzərək burada hökumətin Rusiyanın hərbi sənaye kompleksini maliyyələşdirmək niyyəti güddüyünü, bu hakimiyyətin işğal altındakı torpaqları azad etmək fikrinin olmadığını deyirdilər. Zaman hər şeyi öz yerinə qoydu. Elə onları da. Aradabir yenə də səslərinin gəlməsinə baxmayaraq, artıq siyasət qəbiristanlığındadırlar.

Mən bu hərbi xərc məsələsini elə-belə qabartmadım. Büdcənin dürüstləşdirilməsi zamanı, ötən il olduğu kimi, bu il də ilk növbədə işğaldan azad olunan torpaqlarımızdakı quruculuq işlərinə, müdafiə və təhlükəsizlik

məsələlərinə yönəlik xərclər artırılır ki, bunların da heç biri səbəbsiz deyil. İşğaldan azad olunan torpaqlarımızdakı quruculuq prosesinin sürətləndirilməsinin nə ilə bağlı olduğunu hər birimiz gözəl bildiyimizdən üzərində dayanmıram. Sadəcə, orada çalışan soydaşlarımızdan yenə xahiş etmək istəyirəm ki, həmin torpaqların şəhid qanı hesabına qurtarıldığını və oradakı evlərlə obyektlərin uzun zaman məhrumiyyətlər içərisində yaşayan soydaşlarımız üçün tikildiyini, bu məsələdə cənab Prezidentin, hörmətli Mehriban xanımın necə həssas olduqlarını unutmasınlar.

Ümumiyyətlə, əgər biz hədəflərimizə çatmaq istəyiriksə, bu yol fəhlədən tutmuş mütəxəssis və menecerədək hər birimizin yüksək əmək mədəniyyətinə, əmək intizamına yiyələnməsindən keçir. Sinqapurun, Çinin, daha öncə Yaponiyanın təcrübəsi göstərir ki, iqtisadi uğur Maks Veberin yazdığı kimi, heç də din və məzhəblə deyil, məhz yuxarıda adını çəkdiyim faktorlarla bağlıdır. Yəni cəmiyyətin əmək intizamı və əmək mədəniyyəti nə qədər yüksəkdirsə, onun inkişaf potensialı bir o qədər böyükdür.

Dünən və srağagün Tərtərdə seçicilərlə görüşdə gördüm ki, onların əksəriyyəti büdcəyə əlavə edilən vəsaitin əsas hissəsinin Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq prosesinə, eləcə də müdafiə və təhlükəsizlik məsələlərinə yönəldilməsini anlayışla qarşılayır. Baxmayaraq ki, rayonun əksər kəndlərində elektrik dirəkləri və naqilləri son dərəcə köhnəlmiş vəziyyətdədir. Bəzən kabellərin keyfiyyətsizliyi səbəbindən tez-tez açılmalar olur, gərginliyin azlığından məişət texnikası və su nasosları işləmir. İstərdim ki, artırılan infrastruktur xərclərinin bir hissəsi də məhz Tərtərin bu qəbildən olan ehtiyaclarının ödənilməsinə yönəldilsin.

Onu da özəlliklə vurğulamağı lazım bilirəm ki, Azər-

baycanın müdafiə və təhlükəsizlik xərclərini bu qədər artırması təkcə Ermənistanın revanşizm cəhdlərini perspektivsiz etmək üçün deyil. Ötən dəfə də vurğulandığı kimi, hazırda dünyada 183 qanlı qarşıdurma ocağı var və proseslərin gedişi onların sayının da, bizim regiona mənfi təsirinin də artma ehtimalından xəbər verir. Cənab İlham Əliyev türk dövlətləri parlamentləri sədrləri ilə görüşdə hərbi, hərbi-texniki və təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olmasını elə belə vurğulamırdı. Bizimlə eyni ailənin bəzi üzvlərini imperialist və şovinist çevrələrin necə hədələdikləri göz önündədir. Yəni Azərbaycan öz ordusunu və digər güc strukturlarını kimdən gəlməsindən asılı olmayaraq, bütün təhdidləri dəf etmək üçün qüvvətləndirməlidir və qüvvətləndirir.

# MÜNDƏRİCAT

7 iyun 2024-cü il...................................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................. 106

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

73-cü cild

7 iyun 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 7,5. Sifariş 71. Tiraj 150.